# MÜQƏDDƏS RAMAZAN AYI BAŞLAYIR



11 ayın sultanı adlandırılan Ramazanda müsəlmanlar oruc tutur, imkansızlara yardım edirlər.

Bu ayda insanlar arasında səmimiyyət, mehribanlıq yaranır, bir çox səhv əməllərə tövbə edilir. Azərbaycan xalqı artıq beşinci ildir ki, Ramazanı qalib xalq olaraq qarşılayır. İşğaldan azad edilmiş bütün ərazilərimizdə bayram namazları qılınır, iftar süfrələri açılır.

QMİ-nin təqviminə əsasən, ilk Qədr gecəsi martın 18-nə təsadüf edəcək. Bundan əlavə, Ramazan ayının 20-dən 21-nə keçən gecə (20 mart), Ramazan ayının 22-dən 23-nə keçən gecə (22 mart) və Ramazan ayının 26-dan 27-nə keçən gecə (26 mart) Qədr gecələri olacaq.

SƏHİFƏ 10-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

1 MART ŞƏNBƏ 2025
№ 08 (4209)

Qiyməti - 60 qəpik





## AZƏRBAYCAN AFRİKAYA DƏVƏT OLUNUR

Tarixi qələbəmizdən sonra ölkəmizin hərbi təcrübəsi Afrika dövlətlərində ciddi maraq oyadır. Bakı bu fürsətləri lazımi səviyyədə dəyərləndirərək geniş coğrafiyada Azərbaycanın maraqlarının müdafiəsini təmin edir.

SƏHİFƏ 2-də



## ÖCALANDAN "SİLAHLARI YERƏ QOYUN" ÇAĞIRIŞI

Türkiyə terrorla mücadilə mövzusunda tarixi anlara şahidlik edir. Son illərdə Prezident Ərdoğanın rəhbərliyi ilə ölkə daxilində və xaricində həyata keçirilən anti-terror əməliyyatları real nəticələr verməyə başlayıb.

SƏHİFƏ 7-də



## ŞƏRQLƏ QƏRBİN GÖRÜŞDÜYÜ ŞƏHƏR

Bosniya və Herseqovinanın paytaxtı Sarayevo səs-küylü, rəngarəng, müasirliyə can atan, ənənələri qoruyan, kasıb və mehriban şəhərdir. Yarım milyondan az əhalisi olan bu kiçik şəhərin zəngin və bənzərsiz tarixi var.

SƏHİFƏ 15-də



# HƏR İKİ TƏRƏFİ MƏMNUN EDƏN ƏMƏKDAŞLIQ

Azərbaycan və Pakistanın müdafiə sənayesinə, hərbi-texniki əməkdaşlığın dərinləşməsinə diqqət ayırması qlobal düzənin aqressiv şəkildə dizayn edilməsi fonunda xüsusilə əhəmiyyətlidir.

### MÜDAFİƏ SƏNAYESİNDƏ İŞ BİRLİYİ

Hər iki tərəf qarşılıqlı maraq doğuran sahələri və ikitərəfli əməkdaşlığı müzakirə edib. Prezident İlham Əliyev qeyd edib ki, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə müzakirə etdiyi məsələlər arasında əsas hissə müdafiə, eləcə də müdafiə sənayesi sahələrində əməkdaşlığa həsr olunub.

### SƏFƏR DƏVƏTİ QƏBUL EDİLİB

Azərbaycan Prezidenti Baş nazirin 2025-ci ilin aprelində Pakistana səfər etmək dəvətini qəbul edib. İlham Əliyevin Pakistana səfərinin çərçivələri daha böyük kontekstə malikdir və Azərbaycanla Pakistan regional və beynəlxalq dizayn üçün yeni sürprizlər hazırlayırlar.

SƏHİFƏ 3-də

"ƏSL DİPLOMATİYA ELƏ TƏHSİL SAHƏSİNDƏDİR"

## "İSTƏDİM Kİ, ŞAGİRDLƏRƏ NÜMUNƏ OLUM"



Tural Abbasov: "Süni intellekt çox peşəni əvəz edə bilər, amma heç bir peşəni öldürə bilməz. Süni intellekt, adından da göründüyü kimi, sünidir. Biz yatarkən texnologiya işləyirdi, dayanmırdı. Süni intellektə bir alət kimi baxıram. Amma təhlükəli alətdir. Onu görməzdən gəlmək olmaz. Süni intellektin təhsil hansı formatda olursa-olsun, hansı alətlər çıxarsa-çıxsın, heç vaxt müəllimlik peşəsinin üzərinə keçəcəyinə inanmıram".

SƏHİFƏ 8-də



## ALMANİYA "SAĞ"A YÖNƏLİR

Fridrix Mertz Türkiyənin Almaniyanın mühüm tərəfdaşı olduğunu və Berlin ilə Ankara arasında əlaqələrin gücləndirilməsinin vacibliyini bildirir. O, Rəcəb Tayyib Ərdoğanla ən qısa zamanda görüşmək istədiyini deyib.

SƏHİFƏ 5-də



## SİSTEMSİZ RƏQƏMSALLAŞMANIN FƏSADLARI

Bəzən olur ki, hansısa dövlət orqanı öz datasını heç bir quruma vermək istəmir. Bununla malik olduğu elektron üstünlükləri "nümayiş" etdirməyə çalışır. Əslində, belə hallar vətəndaşların elektron xidmətlərə əlçatanlığını azaldır.

SƏHİFƏ 12-də



## KƏND YOLUNU XATIRLADAN MAGİSTRAL

İpək yolu adlandırdığımız Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Bakıdan Hacıqabula qədər olan hissəsinin durumu ilə bağlı narazılıq artır. Həm sürücülər şikayət edir, həm də sərnişinlər.

SƏHİFƏ 9-da



Çoxmənzilli binaların liftləri dəyişdiriləcək

SƏHİFƏ 2-də



Fransız səfirin "xilas" planı

SƏHİFƏ 4-də



Bahalaşma yenidən intensivləşib

SƏHİFƏ 11-də



Tələbələrin bitməyən nəqliyyat problemi

SƏHİFƏ 13-də



21-ci əsrin "Firon"u

SƏHİFƏ 16-da



## Çoxmənzilli binaların liftləri dəyişdiriləcək

Azərbaycanda çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazası möhkəmləndiriləcək. "Report" xəbər verir ki, Prezident İlham Əliyev çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamla müvafiq şəhər və rayon icra hakimiyyətlərinə 9 milyon 940 min manat vəsait ayrılıb.



## Ceyhun Bayramov Kaya Kallasla danışıb

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas telefon danışığı zamanı siyasi dialoqun intensivləşdirilməsinin əhəmiyyətini vurğulayıblar. "Report" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, telefon danışığı çərçivəsində Azərbaycan və Aİ münasibətlərinin hazırkı durumu və perspektivləri nəzərdən keçirilib, regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.



## Azərbaycanda fəaliyyətdə olan hakimlərin sayı açıqlanıb

Azərbaycanda hazırda 628 hakim fəaliyyət göstərir. "Report" xəbər verir ki, bunu Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov Azərbaycan Hakimlərinin ilk Forumunda deyib. Onun sözlərinə görə, ötən qısa müddət ərzində 140-a yaxın hakimliyə namizəd seçilərək müxtəlif birinci instansiya məhkəmələrinə təyinat alıb: "Bu da hakim korpusunun say tərkibinin ilk dəfə olaraq ən yüksək həddə - 628 nəfərə çatdırılmasına imkan verib. O da nəzərə alınmalıdır ki, hazırda 330-dan çox namizəd seçim prosesinin müxtəlif mərhələsindədir".

# AZƏRBAYCAN AFRİKAYA DƏVƏT OLUNUR



**Tarixi qələbəmizdən sonra ölkəmizin hərbi təcrübəsi və müdafiə sənayesi imkanları Afrika dövlətlərində ciddi maraq oyadır. Rəsmi Bakı bu fürsətləri lazımi səviyyədə dəyərləndirərək geniş coğrafiyada Azərbaycanın maraqlarının müdafiəsini təmin edir.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son illərdə Azərbaycanın beynəlxalq səviyyədə qarşılıqlı əməkdaşlıq istiqamətləri sürətlə genişlənməkdədir. Xüsusilə də Qoşulmama Hərəkatına uğurlu sədrlikdən sonra ayrı-ayrı dövlətlərin rəsmi Bakı ilə qarşılıqlı ikitərəfli əlaqələrini inkişaf etdirməyə marağı artır. Bu baxımdan Afrika ölkələri ilə ikitərəfli münasibətlərin inkişafı xüsusi qeyd edilməlidir. Öncə Somali, bir neçə gün əvvəl isə Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo Azərbaycana rəsmi səfər ediblər.

### "BİZ BİR ÇOX ÖLKƏLƏRƏ SƏRMAYƏLƏR YATIRIRIQ"

Umaru Sisoku Embalo ölkəmizə səfəri çərçivəsində azərbaycanlı həmkarı İlham Əliyevlə görüşüb, qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər. İki ölkənin əməkdaşlıqda maraq göstərdikləri sahələri dövlət başçıları mətbuata birgə bəyanatları zamanı açıqlayıblar.

Prezident İlham Əliyev bildirib ki, beynəlxalq təsisatlarda bir-birimizi hər zaman dəstəkləyirik, bunu belə də davam etdirəcəyik: "Biz iqtisadi sahədə belə bir razılığa gəldik ki, konkret layihələr, investisiya imkanları müəyyən edilsin. Əminəm ki, beləliklə, biz ümumi məxrəcə gəlib çıxacağıq. Çünki biz artıq bir çox ölkələrə sərmayələr yatırırıq. Əlbəttə, biz məmnun olardıq ki, konkret layihələr fürsətini nəzərdən keçirək. Biz, həmçinin hesab edirik ki, bu, müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlıq etmək üçün fürsət yaradır".



### "QVİNEYA-BİSAU VƏ AZƏRBAYCAN İKİ DOST ÖLKƏDİR"

Qvineya-Bisau Prezidenti isə deyib ki, əməkdaşlıq üçün sahə çoxdur - səhiyyə, təhsil, hərbi və təhlükəsizlik sahələri var: "Əminik ki, bu səfər Sizi görməklə bərabər, ölkələrimiz üçün də faydalı olacaq. Qvineya-Bisau və Azərbaycan iki dost ölkədir, bizim amallarımız ümumidir. Bir sıra vacib məsələlər üzrə əminlik var. BMT və İƏT çərçivəsində əməkdaşlıq edirik. Biz də, siz də həmin iki təşkilatın üzvüyük. Birgə işləmək üçün hədəfləri müəyyən edə bilərik. Əl-ələ verib ölkələrimizi daha yaxın etmək üçün işləyə bilərik".

### DOSTLARI ÜÇÜN İNANILAN SİYASİ MÜTTƏFİQ

Göründüyü kimi, istər Somali, istərsə də Qvineya-Bisau prezidentlərinin səfəri zamanı Azərbaycan səmimiyyətlə Afrika qitəsinə dəvət olunur, ölkəmizin təcrübələrindən yararlanmaq imkanları araşdırılır. Təbii ki, beynəlxalq əməkdaşlıq üfüqlərinin genişlənməsinin başlıca səbəbi rəsmi Bakının müstəqil xarici siyasi kurs yürütməsi ilə bərabər, sahib olduğumuz iqtisadi potensial və beynəlxalq səviyyədə artan nüfuzumuzdur. Məhz bu imkanlar sayəsində Azərbaycan dünyada tək etibarlı enerji tərəfdaşı kimi yox, həm də dostları üçün inanılan siyasi müttəfiq adını qazanıb. Tarixi qələbəmizdən sonra ölkəmizin hərbi təcrübəsi və müdafiə sənayesi imkanları da bir çox ölkələrdə, xüsusilə də Afrika dövlətlərində ciddi maraq oyadır. Rəsmi Bakı bu fürsətləri lazımi səviyyədə dəyərləndirərək, geniş coğrafiyada Azərbaycanın maraqlarının müdafiəsini təmin edir.



# HƏR İKİ TƏRƏFİ MƏMNUN EDƏN ƏMƏKDAŞLIQ

**Azərbaycan və Pakistanın müdafiə sənayesinə, hərbi-texniki əməkdaşlığın dərinləşməsinə diqqət ayırması qlobal düzənin aqressiv şəkildə dizayn edilməsi fonunda xüsusilə əhəmiyyətlidir. Pakistanın çəkindiricilik xüsusiyyəti onun nüvə silahına malik olması işığında daha da böyüyür.**



AQŞİN KƏRİMOV

Fevralın 24-25-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycanda dövlət səfərində oldu. Baş nazir Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdü, daha sonra liderlər mətbuata birgə bəyanatla çıxış etdilər.

Hər iki tərəf qarşılıqlı maraq doğuran sahələri və ikitərəfli əməkdaşlığı müzakirə edib, müxtəlif sektorlar üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini bildiriblər.

Prezident İlham Əliyev qeyd edib ki, baş nazirlə müzakirə etdiyi məsələlər arasında əsas hissə müdafiə, eləcə də müdafiə sənayesi sahələrində əməkdaşlığa həsr olunub. Azərbaycan Pakistandan müdafiə sənayesinin istehsal etdiyi avadanlığı artıq alıb və onun keyfiyyətindən çox razılıq var.

Səfər çərçivəsində liderlər iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək üçün sazişlərin və memorandumların imzalanmasının da şahidi olublar.

Baş nazirin səfəri çərçivəsində Bakıda Azərbaycan-Pakistan biznes forumu da keçirilib.

Beləliklə, səfərə ümumi yanaşmanı belə təsvir edə bilərik: Liderlər iki ölkə arasında strateji tərəfdaşlığa sadiq olduqlarını bir daha təsdiqləyərək möhkəm dostluğun durmadan inkişafından məmnun olduqlarını bildiriblər.

### SÜLH NAMİNƏ ÜMUMİ HƏDƏFLƏR

Azərbaycan Prezidenti Baş nazirin müxtəlif mühüm sazişlərin imzalanması üçün 2025-ci ilin aprelində Pakistana səfər etmək dəvətini qəbul edib. Azərbaycan və Pakistanın müdafiə sənayesinə, hərbi-texniki əməkdaşlığın dərinləşməsinə diqqət ayırması qlobal düzənin aqressiv şəkildə dizayn edilməsi fonunda xüsusilə əhəmiyyətlidir. Pakistanın çəkindiricilik xüsusiyyəti onun nüvə silahına malik olması və möhkəmlənmiş klassik xarici siyasətinin işığında daha da böyüyür. Azərbaycan isə Cənubi Qafqazda əsas oyunçu olmaqla özünün geosiyasi doktrinasını Mərkəzi Asiya, Yaxın Şərqə doğru irəlilədir. Bu tərz Azərbaycanla Pakistanın əvvəldən mövcud olan dostluğunu, xoşməramlı siyasətini, etimad mühitini format olunan beynəlxalq sistemdə daha da bərkidir. Bunlar, Azərbaycanla Pakistanın beynəlxalq təşkilatlarda bir-birilərinin ümumi maraqlarını dəstəkləməyə, beynəlxalq sülh və təhlükəsizliyi təşviq etməyə istiqamətlənmiş addımlarına güclü təkan verir. Eyni zamanda, Bakı ilə İslamabad müsəlman ölkələri arasında İslam birliyinə əsaslanan qardaşlıq münasibətlərini qoruyub-saxlamağa və möhkəmləndirməyə töhfə vermiş olurlar. Deməli, İlham Əliyevin Pakistana səfərinin çərçivələri daha böyük kontekstə malikdir və Azərbaycanla Pakistan regional və beynəlxalq dizayn üçün yeni sürprizlər hazırlayırlar.



## MÜDAFİƏ - TƏXRİBATLARA QARŞI HÜCUM

Şahbaz Şərif mətbuata birgə bəyanatda deyib ki, Pakistan ilə Azərbaycan arasında strateji müdafiə sahəsində gözəl əlaqələrin daha yüksək səviyyəyə qaldırılmasının vaxtı çatıb. O, iki ölkənin müdafiə sahəsində birgə istehsal potensialının olmasının vacibliyini də önə çəkib. İlham Əliyevin Pakistana səfər gündəliyində də başlıca prioritet müdafiə sənayesi və birgə istehsalla bağlı məsələlər olacaq. Müzakirə qovluğundakı prioritetlər Azərbaycan, Pakistan və Türkiyə arasında üçtərəfli əlaqələrin daha da dərinləşdirilməsi üçün yollar açır. Üç ölkənin güclü üçbucaqlı əlaqələrinin dərinləşməsi Cənubi Qafqazda Azərbaycanın strateji maraqlarına qarşı cəbhə yaradan qüvvələrlə effektiv cavab kimi də düşünülə bilər. Həm Türkiyənin, həm də Pakistanın Azərbaycana silah ixracını əhəmiyyətli dərəcədə artırması Bakıya böyük geosiyasi dividendlər gətirir. Deməli, Azərbaycanın regionda geosiyasi qələbələrinin nəticələri ardıcıl prosesdir.

### DƏHLİZLƏR ÜZƏRİNDƏKİ SƏHNƏ

Azərbaycan, Türkiyə və Pakistan qədim ticarət dəhlizləri boyunca yerləşirlər. Çinin iddialı və çoxşaxəli “Bir Kəmər və Bir Yol Təşəbbüsü” azərbaycanlılar, türklər və pakistanlılar üçün yeni iş yerləri yaratmaq, həyat keyfiyyətini artırmaq məqsədilə bu qədim marşrutu canlandırır. Lakin Azərbaycan təkcə Şərq-Qərb Beynəlxalq Nəqliyyat Dəhlizinin deyil, eyni zamanda Şimal-Cənub qlobal ticarət koridorunun bir hissəsidir. Azərbaycanla Pakistan bu məsələdə əməkdaşlıq modeli yaratmaqda israrlıdırlar. Prezident İlham Əliyev mətbuata birgə bəyanat zamanı deyib:

“Müzakirə etdiyimiz digər mühüm sahə bağlantı və daşımalardır. Beynəlxalq daşımalar dəhlizlərinin ayrılmaz hissəsi olan Azərbaycanın daşımalar infrastrukturunun imkanlarının artırılması məqsədilə mən cənab Baş nazirə planlarımız, müqavilələr və imzaladığımız razılaşmalar barədə məlumat verdim - istər Şimal-Cənub və ya Şərq-Qərb. Azərbaycan hər ikisində iştirak edir. Əlbəttə ki, bu, bağlantı və daşımaların, iqtisadi inkişafın, o cümlədən siyasi sabitliyin mühüm elementidir. Bir-birinə yaxın yerləşən ölkələr bu cür çoxtərəfli əməkdaşlıq formatında iştirak etdiyi zaman vəziyyət bizim regionlarda daha proqnozlaşdırılan olur. Bu, həmçinin regional sabitliyin mühüm meyarıdır”.

Göründüyü kimi, hərbi-texniki əməkdaşlığın geosiyasi balansı iqtisadi-ticari əlaqələrin dəhlizlər üzərindən gücləndirilməsi imkanlarına da pəncərə açır. İqtisadi-ticari əlaqələr regional və qlobal çəkişmə mənbələrinin bir-biri ilə dil tapmasına da yardımçı olur.

Azərbaycan və Pakistan:

- Özlərinə qarşı beynəlxalq təcrid risklərini aradan qaldırır,
- Geosiyasi nəticələr əldə etmək üçün hərbi qüdrətlə bərabər, yumşaq gücü də işə salır.

# FRANSIZ SƏFİRİN "XİLAS" PLANI



Fransanın Ermənistandakı səfiri Olivye Dekottinyi ölkəsinin Azərbaycanın ali rəhbərliyinin dəmir iradəsi qarşısında əli-qolu bağlandığını yazıq şəkildə bəyan edir. Topu başqalarına atmaqla bu acınacaqlı durumdan çıxmağa çalışır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Fransanın Ermənistandakı səfiri Olivye Dekottinyi növbəti dəfə Azərbaycanı hədəf alan, mövcud reallıqları təkzib edən fikirlər səsləndirib. Bakı Makron Fransasının sözçülərinin bu bəyanatlarına artıq çoxdan alışıb. Lakin səfirin erməni mətbuatına son açıqlamalarında diqqət çəkən bəzi məqamlar var ki, üstündə dayanmaq zərurəti yaranır. Makron Fransasının beynəlxalq səviyyədə isterika halında olduğu heç kimə sirr deyil. Emmanuelin rəhbərliyə başladığı ilk gündən Paris ciddi məğlubiyyətlər seriyasına start verib. Bu "yarış"da Paris bəlkə də reytinq siyahısında ilk yerdə dayanır. Makron isə israrla sözügedən rəqabətdə estafeti heç kimə təhvil verməməkdə inad göstərir.

### MAKRONUN SÖZÇÜSÜNÜN ETİRAFLARI

Fransız səfir özü də Parisin güclü Azərbaycan qarşısında aciz duruma düşdüyünü etiraf etmək məcburiyyətində qalıb. Məsələn, ölkəmizə qarşı bəşəri və hərbi cinayətlər törətməkdə ittiham olunan ermənilərin məhkəmə prosesi ilə bağlı suala cavab verən səfir deyir: "Bilirsiniz, Fransa məhz sizin qeyd etdiyiniz səbəblərə görə Bakı üçün ən nüfuzlu ölkə deyil. Amma bir sıra ölkələr var ki, onların Azərbaycanla kifayət qədər sıx siyasi, hərbi və iqtisadi əlaqələri var və məncə, onlar faydalı ola bilər".

### FRANSANI BMT TŞ ÜZVLÜYÜ DƏ XİLAS ETMİR

Dekottinyi açıq şəkildə Makron Fransasının erməni maraqlarının "müdafiə"sində aciz duruma düşdüyünü, Azərbaycanın ali rəhbərliyinin diplomatik gedişləri, uzaqgörən siyasəti və dəmir iradəsi qarşısında əli-qolu bağlandığını yazıq şəkildə bəyan edir. Topu başqalarına atmaqla bu acınacaqlı durumdan çıxmağa çalışır. Əslində səfirin bəyanatındakı son cümlə Makronun özünün itirilmiş nüfuzunun vurduğu zərbələrdən yayınmaq cəhdi kimi dəyərləndirilməlidir. Fransa prezidentinin Cənubi Qafqazda münaqişə ocaqlarını yenidən alovlandırmaq, bunun sayəsində mövqelərini yenidən bərpa etmək cəhdlərinin uğursuzluğu fransız səfirin fikirlərinin davamında bir daha öz təsdiqini tapır. Qarabağdan könüllü olaraq çıxıb gedən ermənilərlə bağlı sualın cavabında Dekottinyi bildirir: "Fransa bu müddət ərzində üç dəfə təkliflər irəli sürərək, BMT Təhlükəsizlik Şurasında müzakirələr aparmağa nail olub, lakin beynəlxalq ictimaiyyətin reaksiyası adekvat olmayıb".

Göründüyü kimi, Azərbaycanın haqq işinin uğursuzluqla nəticələnməsi üçün əlindəki bütün rıçaqlardan istifadə edən Parisi hətta BMT TŞ-nin daimi üzvü olması da acı məğlubiyyətdən xilas edə bilməyib. Çünki Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası ədalətin, haqqın zəfəri idi.

## PARİSİN "U" DÖNÜŞLƏRİ

**Makronun beynəlxalq siyasətdə qəfil "U" dönüşləri artıq onun ciddi siyasətçi kimi qəbulu imkanlarını da sıfırlayıb. Ukrayna böhranın həlli ilə bağlı Vaşinqton-Moskva danışıqlarında bir anda gəmidən atıldığını görən Fransa prezidenti özü də bilir ki, rəhbəri olduğu ölkəni hansı vəziyyətə gətirib. Parisdə avropalı siyasətçiləri bir araya toplayaraq öncə ABŞ Prezidenti Donald Trampa ultimatum göndərir, üstündən iki gün keçməmiş Vaşinqtona qaçaraq Ağ ev rəhbəri ilə danışıqlar aparmağa cəhd edir. Trampın görüş zamanı Makrona hansı münasibəti sərgilədiyini də bütün dünya görmüş oldu.**

### SƏFİRDƏN QARABAĞ ETİRAFI

**Haşiyədən kənara çıxaraq bu detalı xatırlatmaqda başlıca məqsədimiz əslində Fransa prezidentinin can bir qəlbdə olduğu Ermənistan siyasi isteblişmentində də eyni vəziyyətlə üzləşməsi ilə bağlıdır. Fransız səfirin Dağlıq Qarabağın Azərbaycan ərazisi olması ilə bağlı bəyanatı İrəvanda Makrona qarşı etiraz dalğası yaradıb. Səfir bildirir ki, münaqişə illərində Dağlıq Qarabağ beynəlxalq ictimaiyyət tərəfindən "müstəqil dövlət" kimi tanınmayıb. Hətta İrəvan Almatı bəyannaməsini imzalamaqla Qarabağın Azərbaycan ərazisi olduğunu illər öncə tanıyıb və etiraf edib. Əslində fransız diplomatın bu bəyanatı ilk baxışda Bakının maraqları baxımından uyğun görünür. Lakin Fransanın son illərdə atdığı addımlar unudulmayıb.**

## ERMƏNİ SİYASƏTÇİLƏR MAKRONU HƏDƏF ALIBLAR



O zaman sual olunur: səfir niyə qəfil belə bir bəyanatla çıxış edir? Səbəb Parisdən aldığı birbaşa direktivdir. Fransa prezidenti Azərbaycanla Ermənistan arasında sülh danışıqlarında təzyiq imkanlarının, manevr qabiliyyətinin getdikcə əldən çıxdığını anlayır. Bu səbəbdən, bir gecədə Ukrayna gəmisindən dənizə atıldığı kimi, Cənubi Qafqazda da eyni vəziyyətlə üzləşməmək məqsədi ilə saman çöpü rolunu oynayan Ermənistanı əldən vermək istəmir. Erməni cəmiyyəti də bilir ki, son dörd ildə aparılan danışıqlarda yekun sülhün əldə edilməməsi, hər dəfə yaranan şansların üstündən xətt çəkilməsi məhz Makron Fransasının əməlidir. Artıq erməni siyasətçilər də mövcud vəziyyətə görə məhz Makronu hədəf alıblar. Fransız səfir isə bu bəyanatı ilə prezidentinin əlində qalanları saxlamağa çalışır.

Reallıq ondan ibarətdir ki, lövbər qalxıb. Sülh gəmisinin kapitanı rəsmi Bakıdır. Bölgəmizdəki proseslərin axarına da, istiqamətinə də Azərbaycanın ali rəhbərliyi qərar verir. Makronun isə yeganə çıxış yolu məğlubiyyətini etiraf etmək, bu reallıqla barışmaq və Cənubi Qafqaz gəmisindən də birdəfəlik atılmamaq üçün Azərbaycanın maraqları ilə hesablaşmaqdır.

# ALMANİYA "SAĞ"A YÖNƏLİR



Fridrix Mertz Türkiyənin Almaniyanın mühüm tərəfdaşı olduğunu və Berlin ilə Ankara arasında siyasi, iqtisadi əlaqələrin gücləndirilməsinin vacibliyini bildirir. O, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ən qısa zamanda görüşmək istədiyini deyib.



AZƏR NURİYEV

Almaniyada keçirilən növbədənkənar parlament seçkilərinin nəticələri Ukraynanı sevindirsə də, çoxlarını şoka salıb. Amma səsvermənin nəticələri rəy sorğularının nəticələri ilə üst-üstə düşüb. Dünyanın ən varlı adamı İlon Maskın, eləcə də həm ABŞ, həm də Avropadan olan ifrat sağçı populist liderlərin açıq dəstəklərinə baxmayaraq, AfD sağ mərkəzçi Xristian Demokratlar /Xristian Sosialistlər İttifaqı (CDU/CSU) blokundan geridə qalıb. CDU/CSU 28.5 faiz səs toplayaraq birinci yerdə qərarlaşıb. CDU lideri Fridrix Mertz bildirib ki, o, yalnız bir koalisiya tərəfdaşı olmasını üstün tutur. Bununla o, əvvəlki Almaniya hökumətini erkən seçkilərə gətirib çıxaran çətin üçpartiyalı koalisiya quruluşundan qaçmaq istəyir. Gözlənildiyi kimi, hökuməti formalaşdırmaq vəzifəsi F.Mertzin üzərinə düşəcək. Dəqiq olanı odur ki, AfD - 20.8 faiz səs toplayan partiya - bu danışıqlarda iştirak etməyəcək. Çünki Almaniyanın digər əsas siyasi partiyaları bunu rədd edir. İndi sual odur ki, Mertz istədiyini ala biləcəkmi? Rəqəmlər göstərir ki, parlamentdə çoxluq əldə etmək üçün o, ən azı iki partiyanı koalisiyaya qatmalıdır.

## KOALİSİYA ÜÇÜN İKİ ƏSAS NAMİZƏD

Seçkilərin nəticələrinə görə Almaniya parlamenti aşağıdakı kimi formalaşıb: Xristian Demokratlar İttifaqı (Mertz) - 210 yer, Almaniya üçün Alternativ (AfD - Vaydel) - 145 yer, SPD (Şolts) - 118, "Yaşıllar" - 94.

Mertzin koalisiya ortağı olmağa iki əsas namizəd mərkəz-sol SPD və "Yaşıllar" partiyalarıdır. Hazırkı kansler Olaf Şoltsun rəhbərlik etdiyi SPD dörd il əvvəlki nəticələrə nisbətən 10 faiz azalma ilə yalnız 16.4 faiz səs toplayıb. "Yaşıllar" 11.6 faizlə dördüncü yeri tutub. Təxminlərə görə, CDU/CSU və SPD birlikdə parlamentdə cüzi çoxluq əldə edə və "böyük koalisiya" yarada bilərlər.

Seçkilərdən əvvəl F.Mertz bildirib ki, o, yeni hökuməti Pasxa bayramına - aprelin 20-dək qurmaq istəyir.




### TÜRKİYƏNİN "DOSTU" – MERTZ

Maraqlıdır ki, Mertz Türkiyənin Almaniyanın mühüm tərəfdaşı olduğunu və Berlin ilə Ankara arasında siyasi və iqtisadi əlaqələrin gücləndirilməsinin vacibliyini bildirir. "NATO üzvü kimi Türkiyə regional təhlükəsizlikdə də mühüm rol oynayır", - alman mühafizəkarlarının lideri vurğulayıb. O, Rəcəb Tayyib Ərdoğanla ən qısa zamanda görüşmək istədiyini deyib. Gələcək kansler Türkiyənin geosiyasi mövqeyini nəzərə alaraq, miqrasiya siyasəti və ticarət əlaqələrində funksional ortaqlığa ehtiyac olduğunu bildirib. Türkiyə mediası yazır ki, Mertzin hakimiyyəti dövründə Almaniya-Türkiyə münasibətlərində strateji əməkdaşlıq ön planda olacaq. Xüsusilə miqrasiya, enerji və təhlükəsizlik kimi məsələlərdə praqmatik yanaşmanın tətbiq ediləcəyi nəzərdə tutulur.

Onu da qeyd edək ki, seçkilərdə 19 türk əsilli namizəd də deputat seçilib.

## ŞOLTSDAN QAT-QAT QƏTİYYƏTLİ

Ehtimallara görə, Mertz kansler olarsa, Ukraynanın silahlanmasında çox fəal rol oynayacaq. Bundan əlavə, Mertz Almaniyanın hərbi cəhətdən güclənməsini vacib sayır. Ekspertlərin qənaətincə, diplomatik cəbhədə də Mertz Şoltsdan qat-qat qətiyyətlidir. Almaniya Avropanın təhlükəsizliyində fəal rolu üzərinə götürəcək. Yeni kanslerin Ukraynaya dəstək məsələsində əvvəlki mövqeyi Kiyevə Avropanın yardımları baxımından əhəmiyyətlidir. Lakin Mertzin qarşıdakı dövrdə bu məsələyə spesifik yanaşacağı sual altındadır. Çünki onun üçün hazırkı prioritet koalisiya hökumətini formalaşdırmaq və ölkənin inkişafı ilə bağlı proqramları həyata keçirməkdir.

### "UNUDULMUŞ" MERTZİN QAYIDIŞI

Cəmi on il əvvəl Mertz ovaxtkı müxalif CDU/CSU-nun aparıcı simalarından biri idi və Angela Merkellə liderlik uğrunda mübarizə aparırdı. İndi 69 yaşında olan Mertz nəhayət Almaniya siyasətinin zirvəsinə çatıb. O, altı il əvvəl daha sadə vergi sistemini müdafiə edən və miqrasiyanı məhdudlaşdıran klassik sağçı liberal kimi siyasətə qayıdıb və dərhal CDU sıraviləri arasında Merkeldən sonra ən populyar namizəd olub. Lakin partiya iki dəfə liderlik seçkilərində ona şans verməyib. Mertz də bir çox avropalı siyasətçilər kimi deyir ki, Avropa Donald Trampın təcrid siyasətinə hazır olmalı və ümumilikdə özünü Rusiya təhlükəsindən qoruya bilməlidir. O, hərbi xərcləri tez bir zamanda artıracağını vəd edir.

### AVROPANIN "TRAMP"I

Mertz ABŞ Prezidenti Donald Tramp ilə bəzi oxşar xüsusiyyətlərə də sahibdir: hər ikisi biznes sahəsində təcrübə qazanıb. Tramp Almaniyadakı seçkilərin nəticələrini yüksək qiymətləndirərək, mühafizəkarların qələbəsinin "Almaniya üçün əla gün" olduğunu yazıb. Seçkilərdən sonra Mertz bildirib ki, Ukraynaya sülhməramlı qüvvələrin göndərilməsi məsələsini müzakirə etmək hələ çox tezdir. Mertz, eyni zamanda, Trampın NATO-nun fəaliyyət qabiliyyəti ilə bağlı davamlı açıqlamaları qarşısında transatlantik alyansın gələcəyi ilə bağlı narahatlığını ifadə edib. "Biz Avropanın müstəqil müdafiə qabiliyyətini daha sürətlə inkişaf etdirməliyik. Bu, tamamilə mənim prioritetimdir və ABŞ-də baş verənlər barədə heç bir illüziyam yoxdur", - Mertz bildirib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# “NARINCI İNQİLAB”LARIN məyusluq yaradan nəticələri



Bu gün Ukrayna dövlətçiliyinin gələcək aqibəti ukraynalıların iştirakı olmadan müəyyən edilir. Üç ildir qanlı savaş meydanına çevrilmiş ölkədə sülhün bərqərar olması, xalqın hüzura qovuşmaq istəyinin reallığa çevrilməsi döyüş meydanlarında həlak olan insanların özlərindən asılı deyil.



RÜSTƏM QARAXANLI

Bu gün Ukrayna dövlətinin düşdüyü çətin durum yalnız son üç ilin hadisələrinin məntiqi yekunu deyil. Hazırkı situasiyanın əsası illər öncə Qərbin ultra-liberal ideologiyasının daşıyıcıları olan mərkəzlərin və fondların təhriki və sponsorluğu ilə həyata keçirilmiş, “narıncı inqilablar” adını almış hadisələrin törədildiyi zaman qoyulub. İndi Avropanın ərazicə ən böyük ölkəsinin, təbii ehtiyatları, kənd təsərrüfatı, sənayesi və ən əsası - insan potensialı ilə zəngin dövlətinin masa üzərində parçalanması geosiyasi oyunların yekun səhnəsidir...

### UKRAYNA XALQININ ÜMUMMİLLİ FACİƏSİ

Ukrayna dövlətçiliyinin gələcək aqibəti ukraynalıların iştirakı olmadan müəyyən edilir. Bu prosesin ən acılı tərəfi ondan ibarətdir ki, Ukrayna xalqının hüzura qovuşmaq istəyinin reallığa çevrilməsi döyüş meydanında, raket zərbələri altında həlak olan insanların özlərindən asılı deyil. Ukrayna əvvəl kollektiv Qərblə Rusiya arasında çəkişmə meydanına çevrildi, indi isə yüz minlərlə insan həyatına bais olmuş bu amansız rəqabətin üç qütbü var: Avropa İttifaqı və NATO kimi qurumların Şərqə doğru genişlənmə planlarını özünün təbii maraqlarına təhdid görən Moskva, Kiyevi tapdaq altına salmaqla özünün ekspansionist maraqlarını reallaşdırmaq istəyən Brüssel və administrasiya dəyişikliyindən sonra bu mürəkkəb münaqişədən iqtisadi dividendlər əldə etməyə can atan Vaşinqton.

Hər bir müharibənin həm səbəbi, həm də hədəfi əksər hallarda iqtisadi maraqlardır. Ancaq bu gün Qərbin çəkinmədən sülh əvəzinə Ukraynanın təbii ehtiyatlarına iddiasını ortaya qoyması ukraynalıların həm şəxsi, həm də ümummilli faciəsidir. Bu reallıq onu göstərir ki, Avropa İttifaqı və onun ayrı-ayrı üzvləri, habelə ABŞ-nin tarixə qovuşmuş Bayden administrasiyasının bəlağətli vədlərinin arxasında məhz bu gün izlədiyimiz, cəngəllik qanunları və prinsipləri ilə həyata keçirilən bölgü durub. Ukraynanın “müdafiəsi”nə ayrılan maliyyə transları, outlet silah-sursat tədarükləri, populist bəyanatların hamısının nüvəsində geosiyasi və iqtisadi maraqlar durulmuş. Hazırda rəsmi Kiyevin çıxılmaz durumda olması, ölkə büdcəsinə və əhalinin rifahına xidmət etməli olan milyardlarla dollarlıq təbii ehtiyatlarını nəinki kimlərləsə bölüşmək və ya paylaşmaq, milli sərvətlərindən birdəfəlik məhrum olmaq kimi təhlükə ilə üz-üzə qalması deməkdir.

## QƏRB NEOKOLONİALİZMİNİN QƏDDAR SİMASI

Makron Ukraynanın düşdüyü mürəkkəb vəziyyətin memarlarından biridir. Bugünlərdə bir araya gəlmiş Avropa liderlərinin Kiyevin “müdafiəsi”nə maliyyə yardımı ayırmaları səhnəsi vəziyyəti yaxından izləyən hər bir kəsdə belə bir təəssürat yaradır: sanki avropalılar bununla ukraynalılara deyirlər ki, nə lazımdır edəcəyik, təki siz döyüşün və Rusiyanın bizə tərəf irəliləməsinin qarşısını alın.

Üç ildir ukraynalıların genefonduna sağalmayacaq zərərin vurulmasına baiskar olmuş Qərbi Avropa okeanın o tayından gələn dəstəyin kəsilməsindən sonra tir-tir əsir. Rusiyanın Ukraynadan sonra Avropanın içərilərinə doğru irəliləməsi ssenarisi Avropa liderlərinin yuxularının qorxulu mövzusuna çevrilib.

### SAXTA DEMOKRATLAR

Müstəqil olmaq istəyən, göstərişlə oturub-durmağı özlərinə sığışdırmayan xalqlara “demokratiya” mühazirələri oxuyan, azad yaşamaq istəyən dövlətlərə qarşı “səlib yürüşləri” keçirən, Avropa Parlamenti, AŞ PA kimi qurumları qəsbkar geosiyasətlərinin əsas alətinə çevirmiş Qərbi Avropanın özü demokratiya, insan haqları kimi bəşəri anlayışların imtahanından keçə bilməyərək sinifdə qalır. Simvolik haldır ki, öz daxillərində belə demokratiyanın ən sadə tələblərini tapdaq altına atan, insan haqları kimi mütərəqqi məfhumu geosiyasi dəyənəyə çevirən bu dövlətlər bu gün başlıca müttəfiqləri - ABŞ tərəfindən sərt tənqidə məruz qalırlar. ABŞ-nin vitse-prezidenti Vensin Münhen Təhlükəsizlik Konfransındakı nitqi yalnız tədbirin təşkilatçısının ekspert auditoriyası qarşısında göz yaşlarına hakim ola bilməməsi ilə yekunlaşmamalıdır. Törədilənlərə görə cavab verilməlidir. Ukraynadakı qırğına sponsorluq edib kənara çəkilmiş dövlətlər heç öz daxillərində belə gerçək demokrat deyillər. Bu gün rəsmi Vaşinqtonun “qoca qitə”ni anti-demokratikliyə, despotizmə görə tənqid etməsi, özü də bunu Avropanın düz mərkəzində etməsi çox mətləblərdən xəbər verir, Qərbi Avropanın riyakar siyasətçilərinin iç üzünü açır.



## “NARINCI İNQİLAB”LARIN MEMARLARI NİYƏ GÖRÜNMÜRLƏR?

Ukrayna xalqının faciəvi günlər yaşadığı anlarda gözə nə Viktoria Nuland, nə Kondoliza Rays, nə də Samanta Pauer dəyir. Haradadır USAID, NED və NDI? Cəmiyyətləri saxta ideologiyalarla, LGBT, pasifizm toxumları əkməklə daxildən çürüdüb dağıtmağı qarşılarına məqsəd qoymuş bu qurumlar Ukraynanın düşdüyü sonu görünməyən bəladan niyə narahatlıq keçirmirlər? “Narıncı inqilablar” adı altında dövlət çevrilişlərinə sponsorluq edərkən söylənən bəyanatlar, verilən sözlər indi niyə eşidilmir? İki-üç ay bundan öncə qonşu Gürcüstanda vəziyyəti qarışdırıb, gürcü xalqının əldə etdiyi gənc dövlətçiliyə balta vurmaq istəyən Makronun bir gözü nə səbəbdən Vaşinqtonda qalıb?

Bütün bu sualların bir cavabı var: əgər Ukraynanın liderləri vaxtında təhlükələri görsəydilər, sıravi xalq indi bu faciəni yaşamazdı. Hər bir xalq, cəmiyyət və dövlət müstəqil mövcudluğunu qorumağı bacarmalı, milli maraqları geosiyasi qarşıdurmaların, müstəmləkəçilik niyyətlərinin alətinə çevrilməyə imkan verməməlidir. Xalqın mənafeyi, torpaq bütövlüyü və suverenliyin qlobal ticarət masasına çıxarılmamasının yeganə yolu dövlətə iradəli və qətiyyətli, güclü rəhbərin başçılıq etməsi, cəmiyyətdə həmrəyliyin olması və ümummilli məsələlərdə konsensusun əldə edilməsindədir.

# ÖCALANDAN "SİLAHLARI YERƏ QOYUN" ÇAĞIRIŞI

**Türkiyənin artan gücü və Ərdoğanın qətiyyəti fonunda PKK-nın başqa bir çıxış yolu da qalmayıb. Əks seçimin onlar üçün hansı nəticələr doğuracağını gözəl anlayırlar.**




AZƏR NURİYEV

Türkiyə terrorla mücadilə mövzusunda tarixi anlara şahidlik edir. Son illərdə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkə daxilində, Suriyada, İraqda həyata keçirilən anti-terror əməliyyatları terrorun kökünün kəsilməsi istiqamətində real nəticələr verməyə başlayıb.

İllər öncə saxlanılaraq Türkiyəyə gətirilən, İmralıda ömürlük həbsə məhkum edilən PKK lideri Abdullah Öcalan fevralın 27-də öz tərəfdarlarına müraciət ünvanlayaraq, "heç bir şərt irəli sürmədən silahları yerə qoyun" çağırışı edib. O, terror təşkilatının özünü buraxmasını istəyib. Müraciətində Türkiyə Cümhuriyyətinin terror təşkilatına son qoyduğunu bəyan edib. "Federasiya, muxtariyyət tələbləri artıq real deyil" vurğusu isə bir dövrün sona çatdığını əks etdirən başqa bir etirafdır.

Rəsmi Ankaranın bu çağırışa reaksiyası hələlik təmkinlidir. Türk mətbuatı hökumətdəki mənbələrə istinadən yazır ki, dövlət növbəti prosesi "ehtiyatlı nikbinliklə" izləyəcək. PKK-nın silahlı qanadının çağırışa hansı reaksiya verəcəyi də mühüm amildir. Türk ordusunun da prosesə münasibəti diqqət mərkəzindədir. Çağırışa baxmayaraq, Türkiyə Silahlı Qüvvələri İraqın şimalında terror təşkilatı PKK-ya qarşı "Pəncə" əməliyyatlarını davam etdirir. Qəndil kimi daxili bölgələrə qarşı hava əməliyyatları fasiləsiz davam edir. Suriyanın şimalında "Fərat Qalxanı", "Zeytun budağı" və "Sülh bulağı" əməliyyatı bölgələrində, həmçinin Tişrin bəndi ətrafında İHA əməliyyatları dayandırılmayacaq. Mübarizənin PKK-YPG-nin silahı yerə qoyduğu günə qədər qətiyyətlə davam edəcəyi bildirilir.

### TERRORUN ACI NƏTİCƏLƏRİ

40 ildən artıq Türkiyədə terror əsdirən PKK-nın bu illər ərzində ölkəyə vurduğu maddi və mənəvi ziyan, aldığı canlarla bağlı statistika da mövcud mənzərənin əhəmiyyətini göstərir. Hesablamalara görə, 1984-2019-cu illər arasında terrorun vurduğu zərərin ümumi hesablana bilən dəyəri təxminən 3 trilyon 722 milyard lirədir. Əgər terror olmasaydı, bu vəsaitlə min orta ölçülü beynəlxalq hava limanı inşa edilə bilərdi.

Bu illər ərzində terror nəticəsində şəhid olanların sayı 15 minə yaxınlaşıb. Ölən terrorçuların sayının 50 minə çatdığı təxmin edilir. Milli Müdafiə Nazirliyinin açıq mənbələrində əks olunan rəqəmlərə görə, 1984-cü il avqustun 15-dən 2024-cü il avqustun 15-dək ümumilikdə 14 902 məmur və mülki şəxs şəhid olub. Şəhidlərin 8 486-sı Türkiyə Silahlı Qüvvələrinin əsgərləri, polislər və mühafizəçilərdir. Ümumilikdə 21 667 məmur yaralanıb.

40 ildə öldürülən PKK-lıların sayı 46 276-ya çatıb. Son aylar və aşkarlanmayanlar da daxil olmaqla, bu rəqəmin 50 min civarında olduğu təxmin edilir. Bu müddət ərzində ümumilikdə 12 065 terrorçu yaxalanıb. Ölən və təslim olaraq zərərsizləşdirilən terrorçuların sayı təxminən 75 minə çatıb.

## "TƏBİİ Kİ, SABOTAJ ETMƏK İSTƏYƏN STRUKTURLAR OLACAQ"

Türkiyəli ekspertlərin də məsələyə münasibəti ehtiyatlıdır. AKP-nin keçmiş millət vəkili Əli İhsan Arslanın sözlərinə görə, əsas məsələ "silahlarınızı yerə qoyun" çağırışı idi: "Təbii ki, sabotaj etmək istəyən strukturlar olacaq. Amma biz qərarlı olsaq və xalq olaraq bu işin arxasında dayansaq, uğurun gələcəyinə inanıram".

### BEYNƏLXALQ REAKSİYALAR MÜSBƏTDİR

Öcalanın çağırışına ilkin beynəlxalq reaksiyalar da artıq məlumdur.

Ağ ev Milli Təhlükəsizlik Şurasının sözçüsü Brayan Hyuqes Öcalanın terror təşkilatı PKK-nın özünü buraxması çağırışını "bunun sülhün əldə olunmasına kömək edəcəyinə inanırıq" sözləri ilə dəyərləndirib. Almaniya Xarici İşlər Nazirliyi də açıqlamasında bildirib ki, zorakılığa son qoyulması mühüm addımdır: "Biz prosesi dəstəkləmək üçün əlimizdən gələni etməyə hazırıq".



Abdullah Öcalan

BMT Baş katibi Antonio Quterreş də Öcalanın etdiyi yeni müraciəti alqışlayır. Bunu BMT Baş katibinin sözçüsü Stefan Düjarrik gündəlik mətbuat konfransında bildirib. O qeyd edib ki, BMT vəziyyəti yaxından izləyir: "Bu, son dərəcə vacib xəbərdir. Növbəti addımlar barədə daha ətraflı məlumat əldə etməyə çalışırıq. Bu məsələ bizim üçün olduqca önəmlidir. Söhbət uzun illərdir davam edən və çoxsaylı insan ölümü ilə nəticələnən münaqişədən gedir. Müraciət müəyyən mənada ümid yaradır. Baş katib prosesdə iştirak edən bütün tərəflərlə işləməyə həmişə hazırdır".

## PKK TERRORÇULARININ SEÇİMİ QALMAYIB



Antonio Quterreş

Siyasi leksikonla desək, artıq top terror təşkilatının İraq və Suriyada mənzillənən qərargahlarındadır. Son məlumatlara görə, PKK martın 21-də qurultay çağıraraq bu müraciəti müzakirə edəcək və yekun qərarını verəcək. Öcalanın çağırışına qruplaşmanın Suriya qolu kimi tanınan PYD-nin lideri Saleh Müslümdən də cavab gəlib. PYD lideri Öcalanın müraciətini dəstəkləyib. "Əgər siyasi qrup kimi fəaliyyət göstərməyimizə icazə verilərsə, silahı yerə qoymağı qəbul edirik", - deyə o bildirib. Əslində mövcud beynəlxalq konyunkturada, Türkiyənin artan gücü və Ərdoğanın qətiyyəti fonunda terror təşkilatının başqa bir çıxış yolunun qalmadığı da aydındır. Əks seçimin onlar üçün hansı nəticələr doğuracağını gözəl anlayırlar. Türkiyə Prezidenti bir müddət əvvəl xüsusi vurğulamışdı ki, terrorçular ya silahı yerə qoymalıdırlar, ya da öz məzarlarını qazmalıdırlar.

# "İSTƏDİM Kİ, ŞAGİRDLƏRƏ NÜMUNƏ OLUM"



Tural Abbasov: "Mənə görə, süni intellekt çox peşəni əvəz edə bilər, amma heç bir peşəni öldürə bilməz. Süni intellekt, adından da göründüyü kimi, sünidir, illərdir tətbiq olunur. Biz yatarkən texnologiya işləyirdi, dayanmırdı. Süni intellektə mən bir alət kimi baxıram. Amma təhlükəli alətdir. Onu görməzdən gəlmək olmaz".



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İrəli getməyin əsas yolunun müəllimlik peşəsinin önə çəkilməsi, inkişaf etdirilməsi olduğunu düşünür. Dövr o qədər sürətlə inkişaf edir ki, biz artıq öyrənmişik deyə bilmərik qənaətindədir. Hansı yaşda, hansı peşədə olsaq da, daim oxumalı, dövrə ayaq uydurmalı, öyrənməliyik.

Müsahibimiz Tural Abbasov ABŞ-nin Kolumbiya Universitetinin (Columbia University) Özəl Məktəblərdə Liderlik (Private School Leadership) proqramını təhsil magistri (Ed.M) dərəcəsi ilə bitirib. Bu proqram məhz özəl və beynəlxalq məktəblər üçün idarəçilər yetişdirir. Dünyanın ən qədim müəllim inkişaf mərkəzi özəl məktəblərin idarə olunması üzrə dünyada nadir təhsil imkanı yaradır. Tural Abbasov həmin proqrama qəbul olunan ilk həmyerlimizdir. O, hazırda Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin direktorudur.

O, ölkənin bir çox təhsil təşkilatlarında çalışıb, beynəlxalq layihələr və özəl sektorda xarici mütəxəssislər ilə birgə fəaliyyət göstərib. Beynəlxalq məktəblərdə idarəetmə və modelləşdirmə, korporativ fandreyzinq, icma inkişafı üzrə təcrübəyə malikdir. Liderlik və kouçinq, beynəlxalq məktəblərdə maliyyə idarəçiliyi (London, PTC), storitellinq, biznes psixologiyası (Pearn Kandola, London) üzrə beynəlxalq sertifikatlar əldə edib. Bununla yanaşı, Beynəlxalq Əmək Təşkilatının (ILO) "Öz biznesinə başla və inkişaf etdir" proqramı üzrə potensial master təlimçisidir.

### "ƏSL DİPLOMATİYA ELƏ TƏHSİL SAHƏSİNDƏDİR"

**● Tural bəy, diplomatiya sahəsində təhsil alıb, uzun müddət beynəlxalq layihələrin idarə edilməsi sahəsində çalışmısınız. Təhsil sahəsi ilə yolunuz necə kəsişdi?**

● Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsində bakalavr, magistratura təhsili aldım. O dövrdə bu fakültə kifayət qədər prestijli hesab olunurdu. Azərbaycanda Qərb zonasından bu fakültədə cəmi üç nəfər təhsil alırdı. 2004-cü ildən əmək fəaliyyətinə başladım. Əmək fəaliyyətimə o dövrdə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin monitorinq layihəsi ilə başladım, daha sonra müxtəlif qurumlarda işlədim. Təhsil sahəsi ilə yolum 2017-ci ildən kəsişdi. Azərbaycanda özəl məktəblərin birində biznes meneceri kimi fəaliyyətə başladım. Proses boyunca anladım ki, əsl diplomatiya təhsil sahəsindədir. İlk başda düşünürdüm mən biznes-menecerəm, amma təhsillə bağlı beynəlxalq konfranslarda iştirak edərkən təhsil modelləri, yeni təhsil trendləri diqqətimi çəkdi. "Öyrənməni öyrənmə", "Həyat boyu öyrənmə", "Təhsil hər yerdə" kimi trendlər məndə bu sahəyə maraq oyatdı.

### "O PROQRAMDA TƏHSİL ALAN YEGANƏ AZƏRBAYCANLI İDİM"

**● Kolumbiya Universitetinin özəl məktəblərdə liderlik proqramını təhsil magistri dərəcəsi ilə bitirmisiniz. Sizcə, bu sahədə inkişaf üçün xaricdə təhsil vacibdir?**

● Əgər bu sahədə işləyirəmsə, mütləq araşdırma aparmalı, bunun təhsilini almalı idim. İlk təhsilimi Londonda aldıqdan sonra Müasir Təhsil Kompleksinə işə gəldim. Bu müəssisədə çoxsaylı müəllimlərimiz dünyanın məşhur universitetlərində təhsil alıblar və hər il öyrənməyə davam edirlər. Mən də bu sahədə təhsilimi davam etdirmək üçün bir çox universitetlərə maraqlandım, Kolumbiyanın məhz bu proqramı ilə burada tanış oldum və təhsil almağa qərar verdim. 41 yaşım, üç övladım var idi. Çox çətin qərar idi, çünki orada təhsil almaq asan deyildi. Beş semestr, iki il yarım oxudum. Orada müəllimlər düşünürlər ki, bu proqramda oxuyursansa, səni yükləyə bilərlər. O proqramda təhsil alan yeganə azərbaycanlı idim. Qrup yoldaşlarımın əksəriyyəti ABŞ-nin çox bahalı, məşhur özəl məktəblərindən idi. Çox ağır təhsil modeli idi, gözlərim orada zəiflədi. Amma istədim ki, şagirdlərə nümunə olum. Mən 41 yaşımda bunu bacarıramsa, şagirdlər də bacara bilərlər. Həmçinin orada çox hörmət etdiyim, canlı təhsil əfsanəsi Maykl Fullan ilə tanış oldum.

### "DÖVRƏ AYAQ UYDURMALIYIQ"

**● Maykl Fullan "peşəkar kapital" nəzəriyyəsində bildirib ki, irəli getməyin yeganə yolu müəllimlik peşəsinin inkişaf etdirilməsi və şərəfləndirilməsidir. Bu peşə necə inkişaf etdirilir?**

● Mən onun fəlsəfəsini çox bəyənirəm. Əsas məsələ odur ki, təhsillə bağlı başəriyyət paradiqması baş verir. O, peşəkar müəllimə kapital kimi baxır və müəllimliklə bağlı bir çox nəzəriyyələri var. Ümumiyyətlə, bu peşə ilə bağlı dünyada müxtəlif nəzəriyyələr və yanaşmalar mövcuddur. Məsələn, bir nəzəriyyədə deyilir ki, biz müəllimə daim diqqət göstərməli, qayğısına qalmalıyıq. Amma digər model, məsələn, Finlandiya modeli deyir ki, onlara ən yaxşı statusu verməliyik, amma biliklərini də daim ölçməliyik. Bizdə də sertifikasiya imtahanları keçirilir, lakin çox müəllim etiraz edir. Əslində, müəllimlik peşəsi daim inkişafda olmalıdır, çünki müəllim şagirdin həyatını dəyişə, cəmiyyətə uğurlu fərdlər qazandıra bilir. Dövr o qədər sürətlə inkişaf edir ki, "biz artıq öyrənmişik" deyə bilmərik, daim oxumalı, öyrənməliyik. Müəllimin də bilikləri mütəmadi şəkildə ölçülməlidir. Bu, şagirdlərdə də belədir. 9-11-ci sinifdə artıq şagirddə ali düşüncə formalaşmalıdır. Biz isə əvvəllər düşünürdük ki, universiteti, magistraturanı bitirsin, ondan sonra formalaşacaq. Sadə dildə desək, şagird artıq nəyi bilib, nəyi bilmədiyini özü sorğulamalı, məktəblər də buna kömək etməlidirlər. Dövrə ayaq uydurmalıyıq.



Fotolar: Əjdər İbrahimov - Global Photostock

### "SÜNİ İNTELLEKT O VAXT BU PEŞƏNİ MƏHV EDƏR Kİ..."

**● Son dövrlər xaricdəki top universitetlərdə təhsil alanların sayı artıb. Şagirdlər dövrə ayaq uydura bilirlər?**

● Bu, çox sevindiricidir. Düşünürəm ki, təhsilə marağın yaranmasının səbəbi dövlətin mövqeyidir. Dövlət top universitetlərə tələbə göndərir. Çünki bizə mütəxəssis lazımdır. Əvvəllər ingilis dilini bilən insan üçün işə düzəlmək rahat idi. İndi isə ingilis dilini bilmək işə düzəlmək üçün vasitə deyil, təhsilə açardır. Yəni dil bilikləri ancaq biliyə çıxış vasitəsidir, prestij deyil.

**● Tural bəy, sizcə, süni intellekt müəllimlik peşəsinə necə təsir edəcək? Bəzi insanlar düşünürlər ki, gələcəkdə müəllimə ehtiyac olmayacaq. Siz necə düşünürsünüz, süni intellekt bu peşəni "öldürə" bilər?**

● Mənə görə, süni intellekt çox peşəni əvəz edə bilər, amma heç bir peşəni öldürə bilməz. Süni intellekt, adından da göründüyü kimi, sünidir, illərdir tətbiq olunur. Biz yatarkən texnologiya işləyirdi, dayanmırdı. Süni intellektə bir alət kimi baxıram. Amma təhlükəli alətdir. Onu görməzdən gəlmək olmaz. Süni intellektin təhsil hansı formatda olursa-olsun, hansı alətlər çıxarsa-çıxsın, heç vaxt müəllimlik peşəsinin üzərinə keçəcəyinə inanmıram. Süni intellekt müəllimə köməkçi vasitə olacaq, amma onu əvəzləyə bilməyəcək. O vaxt bu peşəni məhv edər ki, insan qalmasın, şagirdlər robot olsun, robot robota dərs keçsin. Biz müəllimləri yetişdirməyə davam etməliyik. İrəli getməyin əsas rolu müəllimlik peşəsinin önə çəkilməsidir.



## BU YOLDAN HƏM SÜRÜCÜLƏR ŞİKAYƏT EDİR, HƏM DƏ SƏRNİŞİNLƏR

# KƏND YOLUNU XATIRLADAN MAGİSTRAL

İpək yolu adlandırdığımız Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Bakıdan Hacıqabula qədər olan hissəsinin mövcud durumu ilə bağlı narazılıq artır. Həm sürücülər şikayət edir, həm də sərnişinlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az







Ölkəmizin həm sərnişindaşıma, həm də yükdaşımada əsas arteriyalarından biri İpək yoludur. Bu yol Gürcüstanla Azərbaycanı əlaqələndirir. Həmçinin bu istiqamətdə olan regionlara gediş-gəliş üçün əsas tranzitdir. Həmin magistral yolun Gürcüstan sərhədindən Hacıqabul rayonuna qədər olan hissəsi normal olsa da, Hacıqabul-Bakı hissəsi barədə bunu demək mümkün deyil. Bir müddətdir yolun sıradan çıxan hissələrinə yamaq vurulur. Amma bu da problemi həll etmir. Əksinə, həm sərnişin daşıyan kiçik minik avtomobillərinə, avtobuslara, həm də tranzit yüklər daşıyan iritonnajlı yük maşınlarına təhlükə yaradır. Həm sürücülər şikayət edir, həm də sərnişinlər.

### MALİYYƏ VƏSAİTİ PROBLEMİ

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli bildirdi ki, həmin yol hissə-hissə təmir olunur, lakin əsaslı təmir edilməsi üçün vəsait lazımdır: "Həmin yolun təmiri nəzərdə tutulur. Aidiyyəti qurumlara maliyyə vəsaiti ayrılması üçün müraciət olunub. Maliyyə vəsaitinin ayrılması gözlənilir. Bu məsələ həllini tapdıqda həmin yolda əsaslı şəkildə təmir işləri həyata keçiriləcək. Asfalt qatının yenilənməsi planlaşdırılır".

### "YOLLARIMIZIN BƏZİLƏRİ STANDARTLARA CAVAB VERMİR"

Azərbaycan Texniki Universitetinin Avtomobil daşımaları və yol hərəkətinin təşkili kafedrasının dosenti, nəqliyyat eksperti Fərhad Eyyubovun sözlərinə görə, magistral yollara yenidən baxış keçirilməlidir: "Bu yol uzun müddət əvvəl çəkilib. Fikrimcə, infrastrukturla bağlı məsələlər tamamlandıqdan sonra magistral yollara yenidən baxılmalıdır. Əvvəllər çəkilmiş yollar nə qədər təmir edilsələr də, müasir standartlardan kənarda qalırlar". F.Eyyubovun fikrincə, bütün yollar üçün müasir standartların tətbiqi vacibdir: "Hazırda yollarımızın bəzisi köhnədir, standartlara cavab vermir. Bəzisi isə müasir və yüksək səviyyəli çəkilmiş, bütün dünya standartlarına uyğun yollardır. Bunlara baxılmalı, ümumi texniki baxış, monitorinq keçirilməlidir. Çünki İpək yolu beynəlxalq magistral yollardan biridir. Yolun bəzi hissələri sökülüb yenidən salınmalı, bəzi yerləri isə sadəcə bərpa olunmalıdır".



Fərhad Eyyubov
Anar Nəcəfli

## MAGİSTRAL VƏ ŞƏHƏRDAXİLİ YOLLAR EYNİ DEYİL

İdarəetmə sistemləri üzrə mütəxəssis, iqtisadçı-ekspert Asif İbrahimov İpək yolunun ölkəmiz üçün vacib əhəmiyyət daşıdığı qənaətindədir: "Beynəlxalq idarəetmə standartlarına görə yolların da standartları mövcuddur. Bizim ölkəmizdə yol təsərrüfatının sinifləndirilməsi aşağı səviyyədə deyil. Hətta qonşu ölkələrlə müqayisədə daha yüksək səviyyədə olduğunu da söyləyə bilərik. Yolların baxımı, təmir edilməsi, həmçinin yeni yolların salınması istiqamətində işlər görülür. Amma düşünürəm ki, bu işlər həyata keçirilərkən əsas nəzərə alınmalı məqam keyfiyyətdir. Keyfiyyət daha ön planda olmalıdır".

Ekspertin fikrincə, magistral yollar şəhər yolları ilə eyni hesab edilməməlidir: "Bakı-Qazax, Bakı-Astara yolunda müəyyən hissənin tez bir zamanda sıradan çıxması halları ilə qarşılaşmaq mümkündür. Buna səbəb böyük yük maşınları ilə qonşu ölkələrə daşımaların həyata keçirilməsidir. Lakin nəzərə almalı olduğumuz məqam odur ki, iritonnajlı yük maşınları hərəkət edən yollarla kiçik minik avtomobillərin yolları davamlılıq baxımından fərqlənir. O səbəbdən yollar salınarkən bütün bunların nəzərə alınması vacibdir. Texnoloji ardıcıllığa, tikinti normalarına riayət etmək lazımdır. Əgər yollar tez-tez çökürsə, deməli, haradasa bu qaydalara əməl edilməyib".



Asif İbrahimov

## "BU İSTİQAMƏTDƏ SƏRT ADDIMLAR ATILMALIDIR"

A.İbrahimovun sözlərinə görə, yolları salmaqla yanaşı, onlara nəzarət olunması da vacibdir: "Əgər bu yol mütəmadi təmir olunur, lakin tez sıradan çıxırsa, təmirin keyfiyyəti müvafiq qurumlar tərəfindən araşdırılmalıdır. Bu istiqamətdə çox sərt addımlar atılmalıdır. Magistral yollarımızın bir vacib problemi də işıqlandırma ilə bağlıdır. Yolların bəzi hissələri işıqlandırılsa da, əksər ərazilərdə işıq dirəkləri mövcud deyil. Bu da həmin yollarda hərəkət edən nəqliyyat vasitələrinə ciddi çətinliklər yaradır".

### 31 YERDƏ 51 TƏRƏZİ QURAŞDIRILIB

AYNA-dan da bu yolla bağlı görülən işlər haqqında məlumat verildi: "AYNA ümumi istifadədə olan yol infrastrukturunun qorunması, istismar müddətinin uzadılması və təhlükəsizliyinin təmin edilməsi istiqamətində yeni texnologiyaların tətbiqini daim nəzarətdə saxlayır. Artıq Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda və Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunda innovativ mexanizm olan 6 elektron tərəzi quraşdırılıb, digər məntəqələrdə işlər davam edir. Ümumilikdə bu proses 31 yerdə 51 tərəzinin quraşdırılmasını əhatə edir. AYNA tərəfindən yaradılan Elektron Tərəzilərin Vahid Monitorinq Mərkəzinin məqsədi isə məhz iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrlərinə nəzarətdir. Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin İnformasiya Sisteminə inteqrasiya olunmuş bu mərkəz elektron tərəzilərdən əldə olunan məlumatları toplayır, emal edir və qanunvericiliklə nəzərdə tutulan qaydada istifadə etməklə iriqabaritli nəqliyyat vasitələrinin qanun pozuntularını aşkar etməyə imkan yaradır".

# MÜQƏDDƏS RAMAZAN AYI BAŞLAYIR

11 ayın sultanı adlandırılan Ramazanda müsəlmanlar oruc tutur, imkansızlara yardım edir, sahib olduqlarını paylaşırlar. Bu ayda insanlar arasında səmimiyyət, mehribanlıq yaranır, bir çox səhv əməllərə tövbə edilir.



F.ABASOĞLU

İslam dünyasını birliyə, həmrəyliyə, dünyanı sülhə səsləyən müqəddəs Ramazan ayı başlayır. 11 ayın sultanı adlandırılan Ramazanda müsəlmanlar oruc tutur, imkansızlara yardım edir, sahib olduqlarını paylaşırlar. Bu ayda insanlar arasında səmimiyyət, mehribanlıq yaranır, bir çox səhv əməllərə tövbə edilir.

**NOVRUZDA AÇILAN SÜFRƏLƏR İFTAR SAATLARINA UYĞUN OLMALIDIR**

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası da Ramazan ayının başlaması ilə bağlı fətva verib. Fətvada deyilir ki, builki Ramazan xalqımızın qədim bayramı Novruz günlərinə təsadüf edəcək. Belə əlamətdar günlərin üst-üstə düşməsi cəmiyyətdə bir çətinlik yaratmır, çünki İslamın təməl prinsiplərindən olan oruc ibadəti ilk növbədə Allahın əmridir. Allahın rəhmət və bərəkətinin gəlişinə görə oruclular üçün ruhu və qəlbləri sevindirən Ramazan da, təbiətin rəbbül-aləm tərəfindən yenidən oyanışının rəmzi olan Novruz da mübarək bayramlar qismindəndir: "Çərşənbələr daxil olmaqla Novruz bayramı gecəsində açılan süfrələr iftarın saatlarına uyğun olmalıdır".

**HƏDDƏN ARTIQ YEMƏK YEMƏYİN**

İlahiyyatçı Fazil Əhmədli Oxu.Az-a açıqlamasında bildirir ki, mübarək Ramazan ayı insanı mənəvi cəhətdən paklaşdırdığı üçün onu Allahla yaxınlaşdırır, insan öz fitrətinə qayıtmış olur. Fitrətinə qayıdan insan artıq böyük mənəvi hədiyyə qazanır: "Bu, Ramazan ayının göstərişlərinə diqqətlə riayət edənlərə aiddir. İnsanlar gərək imsaq vaxtı iftara qədər çox acmamaq üçün həddən artıq yemək yeməsin. Həzrəti Peyğəmbərimiz belə bir hədis buyurub ki, "Allahın bir neçə dolu qabdan acığı gəlir". Onlardan biri halaldan dolan mədədir. İnsan halal da olsa, həddindən artıq doyunca yeməməlidir ki, mənəvi ab-havanı duya bilsin. Fitrə zəkatının etimologiyası da buradan gəlir".

F.Əhmədli qeyd edib ki, hər bir oruc tutan müsəlman Fitr bayramında mütləq zəkat çıxarmalıdır: "Fitrəni aylıq gəliri ailəsinin və özünün dolanışığına kifayət etməyən fəqir şəxs çıxarmamalıdır. O, əksinə zəkat alan tərəfdir. Fitrəni fəqir olmayan şəxs çıxarmalıdır. Müəyyən çətinliklər olsa da, öz ailəsini dolandırmağı bacaran hər bir müsəlman fitrə zəkatını çıxarıb fəqirlərə verməlidir. Fitr bayramı axşamı zəkat çıxarılmalıdır. Yəni axşam ay görünür və sabah bayram günü olduğu elan olunursa, fitrə çıxardılır. Fitrə evdə olan hər bir şəxsin adına çıxarılmalıdır. Körpə uşaq belə olsa, onun adına da çıxarılmalıdır".

F.Əhmədli fitrə zəkatını buğda, arpa, xurma, düyü, kişmiş, qarğıdalı və bu kimi qida məhsulları ilə çıxarılmasını daha yaxşı olduğunu qeyd edib: "Fitrə zəkatının bu qidalardan ibarət olaraq çıxarılması bizə hədislər şəklində gəlib. Həmin ərzaqların miqdarı üç kiloqram olmalıdır. Bu məhsulların hər hansı birinin üç kiloqramının dəyərində pul ilə də fitrə zəkatı çıxarıla bilər".



Ya əliyyu ya əzim, ya ğafuru ya rəhim, əntər-rəbbul-əzim, əlləzi ləysə kəmislihi şəy və huvəs-səmiul-bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur, və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə və huvə şəhru ramazan əlləzi ənzəltə fihil-quran, hudəl-linnasi və bəyyinatin minəl-huda vəl-furqan, və cəəltə fihi ləylətəl-qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fəya-zəl mənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən-nar, fi mən təmunnu ələyhi və ədxilnil-cənnəh, birəhmətikə ya ərhəmər-rahimin.

Bismillahir Rəhmanir Rəhim

Allahummə ləkə sumtu və bikə aməntu və ələykə təvəkkəltu və əla rizqikə əftərtu və sauməl-ğədi min şəhri Ramazanə nəvəytu, fəğfirli ma qəddəmtu və ma əxxərtu.

Allahummə ədxil əla əhlil-quburis-surur, Allahummə əğni kullə fəqir, Allahummə əşb'i kullə ca'i, Allahumməksu kullə uryan, Allahumməqzi dəynə kulli mədin, Allahummə fərric ən kulli məkrub, Allahummə ruddə kullə ğərib, Allahummə fukkə kullə əsir, Allahummə əslih kullə fasidin min umuril-muslimin, Allahumməşfi kullə məriz, Allahummə suddə fəqrəna biğinak, Allahummə ğəyyir suə halina bihusni halik, Allahumməqzi ənnəd-dəynə və əğnina minəl-fəqr, innəkə əla kulli şəyin qədir.

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ

2025 - 1446

RAMAZAN AYININ TƏQVİMİ

Bakı

| Həftənin günləri | Hicri ayı | Miladi ayı | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Gün batır | Məğrib azanı | İşa azanı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Şənbə | 01 Ramazan | 01 Mart | 05:49 | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:32 | 18:47 | 19:47 |
| Bazar | 02 Ramazan | 02 Mart | 05:47 | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:34 | 18:48 | 19:48 |
| Bazar ertəsi | 03 Ramazan | 03 Mart | 05:46 | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:35 | 18:49 | 19:49 |
| Çərşənbə axş. | 04 Ramazan | 04 Mart | 05:44 | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:36 | 18:50 | 19:50 |
| Çərşənbə | 05 Ramazan | 05 Mart | 05:43 | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:37 | 18:51 | 19:52 |
| Cümə axş. | 06 Ramazan | 06 Mart | 05:41 | 05:46 | 07:06 | 12:52 | 16:54 | 18:38 | 18:52 | 19:53 |
| Cümə | 07 Ramazan | 07 Mart | 05:40 | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:39 | 18:53 | 19:54 |
| Şənbə | 08 Ramazan | 08 Mart | 05:38 | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:40 | 18:54 | 19:55 |
| Bazar | 09 Ramazan | 09 Mart | 05:36 | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:41 | 18:55 | 19:56 |
| Bazar ertəsi | 10 Ramazan | 10 Mart | 05:35 | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:42 | 18:56 | 19:57 |
| Çərşənbə axş. | 11 Ramazan | 11 Mart | 05:33 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:43 | 18:57 | 19:58 |
| Çərşənbə | 12 Ramazan | 12 Mart | 05:31 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:45 | 18:59 | 19:59 |
| Cümə axş. | 13 Ramazan | 13 Mart | 05:30 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 18:46 | 19:00 | 20:00 |
| Cümə | 14 Ramazan | 14 Mart | 05:28 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 18:47 | 19:01 | 20:01 |
| Şənbə | 15 Ramazan | 15 Mart | 05:26 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 18:48 | 19:02 | 20:03 |
| Bazar | 16 Ramazan | 16 Mart | 05:25 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 18:49 | 19:03 | 20:04 |
| Bazar ertəsi | 17 Ramazan | 17 Mart | 05:23 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 18:50 | 19:04 | 20:05 |
| Çərşənbə axş. | 18 Ramazan | 18 Mart | 05:21 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 18:51 | 19:05 | 20:06 |
| Çərşənbə | 19 Ramazan | 19 Mart | 05:20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 18:52 | 19:06 | 20:07 |
| Cümə axş. | 20 Ramazan | 20 Mart | 05:18 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 18:53 | 19:07 | 20:08 |
| Cümə | 21 Ramazan | 21 Mart | 05:16 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 18:54 | 19:08 | 20:09 |
| Şənbə | 22 Ramazan | 22 Mart | 05:14 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 18:55 | 19:09 | 20:11 |
| Bazar | 23 Ramazan | 23 Mart | 05:13 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 18:56 | 19:10 | 20:12 |
| Bazar ertəsi | 24 Ramazan | 24 Mart | 05:11 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 18:57 | 19:11 | 20:13 |
| Çərşənbə axş. | 25 Ramazan | 25 Mart | 05:09 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 18:58 | 19:12 | 20:14 |
| Çərşənbə | 26 Ramazan | 26 Mart | 05:07 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 18:59 | 19:13 | 20:15 |
| Cümə axş. | 27 Ramazan | 27 Mart | 05:05 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:00 | 19:14 | 20:16 |
| Cümə | 28 Ramazan | 28 Mart | 05:04 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:01 | 19:15 | 20:18 |
| Şənbə | 29 Ramazan | 29 Mart | 05:02 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:02 | 19:17 | 20:19 |

Şəvval ayının 1-i (30 Mart) Fitr (Ramazan) bayramıdır.

## İlk Qədr gecəsi martın 18-nə təsadüf edəcək

Ramazan ayının Qədr (Əhya) gecələrinin vaxtı da artıq məlumdur. QMİ-nin təqviminə əsasən, ilk Qədr gecəsi Ramazan ayının 18-dən 19-na keçən gecə, yəni martın 18-nə təsadüf edəcək. Bundan əlavə, Ramazan ayının 20-dən 21-nə keçən gecə (20 mart), Ramazan ayının 22-dən 23-nə keçən gecə (22 mart) və Ramazan ayının 26-dan 27-nə keçən gecə (26 mart) Qədr gecələri olacaq.

Qeyd edək ki, Ramazan ayı Azərbaycanda martın 1-də başlayır. Şəvval ayının 1-i, yəni martın 30-da Ramazan (Fitr) bayramı olacaq.



Fazil Əhmədli

# SOCAR-IN PREZIDENTI DAHIR SHIRE MOHAMED ILƏ GÖRÜŞÜB

SOCAR-ın prezidenti Rövşən Nəcəf Somali Federativ Respublikasının neft və mineral sərvətlər naziri Dahir Shire Mohamed ilə görüşüb.

Görüşdə cari il fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud arasında keçirilən yüksəksəviyyəli görüşlərin ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən enerji sektorunda əməkdaşlıq üçün əlverişli zəmin yaratdığı xüsusi vurğulanıb.



Söhbət zamanı Somalidə neft-qaz sahəsində insan kapitalının inkişafı məqsədilə somalili tələbələrin BANM-də təhsil almaları, somalili mütəxəssislərin neft-qaz sahəsində bilik və təcrübələrinin artırılması üçün əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Görüşdə enerji sektorunun müxtəlif istiqamətlərində, o cümlədən axtarış-kəşfiyyat və treydinq istiqamətlərində mümkün əməkdaşlığın araşdırılması və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 472
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

QİYMƏTLƏRİN YENİDƏN SÜRƏTLƏ ARTMAĞA BAŞLAMASININ SƏBƏBİ NƏDİR?

# BAHALAŞMA YENİDƏN İNTENSİVLƏŞİB

Rəsmi statistika göstərir ki, 2025-ci ilin ilk ayında qiymət artımı keçən ilin dekabr ayına nisbətən daha çox olub. Bəs görəsən, inflyasiya niyə sürətlənib? Qiymətlərin yenidən sürətlə artmağa başlamasının səbəbi nədir?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Dövlət Statistika Komitəsi istehlak bazarında qiymətlərin dəyişməsi haqqında məlumatları açıqlayıb. Məlumata əsasən, 2025-ci ilin yanvar ayında istehlak qiymətləri indeksi (inflyasiya göstəricisi) 2024-cü ilin yanvar ayına nisbətən 5,4 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 5 faiz, qeyri-qida məhsulları üzrə 2,6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 8,4 faiz artıb.

Keçən il istehlak qiymətləri indeksinin artım tempi 4,9 faizdən 5,4 faizə yüksəlib.

2025-ci ilin yanvar ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən (dekabr) bir faiz, qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi isə əvvəlki aya nisbətən 0,6 faiz yüksəlib.

Maraqlıdır, inflyasiya niyə sürətlənib? Qiymətlərin yenidən sürətlə artmağa başlamasının səbəbi nədir?

### "QİYMƏT ARTIMI PROQNOZLAŞDIRILAN DİAPAZONDA DƏYİŞİR"

Millət vəkili Vüqar Bayramov "Kaspi"yə açıqlamasında bildirdi ki, bütövlükdə inflyasiya qeydə alınsa da, rəsmi statistika göstərir ki, qiymət artımı proqnozlaşdırılan diapazonda dəyişir: "İnflyasiya göstəriciləri üçün proqnozlaşdırılan diapazon 4-6 faiz arasıdır. Sözsüz ki, biz 2024-cü il və eləcə də, ötən ilin son ayı ilə müqayisədə inflyasiya səviyyəsində artımı müşahidə edirik. Bunun əsl səbəbi idxal inflyasiyasıdır. Biz yanvar ayında idxal inflyasiyasının qiymət artımına, istehlak bazarına təsirlərini müşahidə etdik. Bu da inflyasiya səviyyəsində özünü göstərdi".



Foto: Firudin Səlimov - Global Photostock

Vüqar Bayramov

### "SÜNİ QİYMƏT ARTIMINA QARŞI MÜBARİZƏ GÜCLƏNDİRİLMƏLİDİR"

Millət vəkili deyir ki, yanvar ayında bazarda yerli kənd təsərrüfatı məhsullarının payı azalıb, bu da nəticə etibarilə istehlak bazarında məhsul strukturuna təsir göstərir. Bunun nəticəsində də biz qiymətlərdə artımları müşahidə edirik: "2025-ci ildən ölkədə sosial paket icra olunub. Sosial paketin icrasına uyğun olaraq təbii ki, tələbin, istehlakın artması gözlənilir. Amma bu kontekstdə süni qiymət artımlarına qarşı mübarizənin gücləndirilməsinə ehtiyac var ki, istehlak bazarında yeni qiymət artımları müşahidə olunmasın. Birmənalı şəkildə müvafiq dövlət qurumu tərəfindən süni qiymət artımlarına qarşı mübarizə gücləndirilməlidir".




### "İDXALIN ƏVƏZLƏNMƏSİ PROSESİ İNTENSİVLƏŞMƏLİDİR"

V.Bayramov vurğulayır ki, regionda qiymət artımı müşahidə olunduğu üçün bu, bizə də təsirsiz ötüşmür: "İdxalın əvəzlənməsi prosesi intensivləşməlidir, çünki bu proses praktiki olaraq, idxal inflyasiyasının təsirlərinin minimumlaşdırılmasına gətirib çıxara bilər. Hazırda regionda qiymət artımı müşahidə olunur. Bu da idxal vasitəsilə Azərbaycan istehlak bazarında inflyasiya səviyyəsinə təsir göstərir".

### İSTEHSAL SAHƏSİNDƏ ÇƏTİNLİKLƏR...

İqtisadçı Eldəniz Əmirov bildirdi ki, inflyasiyanın ötən illə müqayisədə bu il daha yuxarı olacağı proqnoz edilirdi: "Bunun səbəbi istehsal və təchizat zəncirində olan çətinliklər, tələbin müəyyən qədər artması, eyni zamanda idxal etdiyimiz ölkələrdə məhsulların istehsal-logistika xərclərinin artmasıdır".

İqtisadçı hesab edir ki, 2025-ci il üzrə olan proqnoz göstəriciləri real nəticələri aşmayacaq.

İqtisadçı Xalid Kərimli isə bildirir ki, inflyasiyanın sürətlənməsi səbəbi yanacağın qiymətinin artmasıdır: "Ötən ilin ikinci yarısından benzinin qiyməti 10 faiz, dizelin qiyməti isə 25 faiz artdı. Enerji qiymətlərinin artması ciddi surətdə inflyasiyaya təsir edəcək amildir. Təkcə dizel yanacağının qiymətinin artırılması istehsal xərclərinin, kənd təsərrüfatı məhsullarının, tikinti materiallarının daşınmasının qiymətini ciddi şəkildə artırır".



Eldəniz Əmirov

## HANSI MƏHSULLAR BAHALAŞIB?

Məlumat üçün bildirək ki, cari ilin yanvar ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarında daha çox bahalaşma olub. Buna misal olaraq, balıq məhsullarını, uşaq qidası üçün quru süd qarışığını, kərə, günəbaxan və qarğıdalı yağlarını, süfrə marqarinini, naringi, alma, armud, heyva, nar, xurma, kivi, qoz, fındıq, şabalıd, ağ kələm, göyərti, xiyar, pomidor, şirin bibər, balqabaq, sarımsaq, soğan və kartofu qeyd etmək olar. Makaron, təzə balıq, yumurta, portağal, banan və yerkökünün qiymətlərində isə enmə müşahidə olunub. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. Həmçinin bu ilin yanvar ayında qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 0,3 faiz artıb. Yanvar ayında əvvəlki ayla müqayisədə bəzi qeyri-qida məhsullarında bahalaşma qeydə alınıb. Buna misal olaraq kərpicin, sulu boyaların, pambıq parçaların, çilçıraqların, zərgərlik məmulatlarının qiymətinin artmasını göstərmək olar. Kəsilmiş taxtaların, laminat parketlərin, yazı kağızlarının qiymətlərində isə enmə müşahidə olunub.

# SİSTEMSİZ RƏQƏMSALLAŞMANIN FƏSADLARI

**Bəzən olur ki, hansısa dövlət orqanı öz datasını heç bir quruma vermək istəmir. Bununla malik olduğu elektron üstünlükləri "nümayiş" etdirməyə çalışır. Əslində, belə hallar vətəndaşların elektron xidmətlərə əlçatanlığını azaldır.**

SEVİNC ABBASOVA

Azərbaycanda dövlət qurumlarının rəqəmsallaşma səviyyəsinin diaqnostikası aparılacaq. Bu məsələ Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nda əksini tapıb. Konsepsiyaya əsasən, 2025-2026-cı illərdə 12 dövlət qurumunun rəqəmsallaşma səviyyəsinin diaqnostikası həyata keçiriləcək. Bu məqsədlə dövlət qurumlarının iştirakı ilə işçi qrupu yaradılacaq.

Maraqlıdır, görəsən, hazırda dövlət qurumlarının rəqəmsallaşma səviyyəsi necədir? Bu məsələdə hansı qurumlar daha çox geri qalır?




**"İNKİŞAF ÜÇÜN MADDİ RESURSLAR MÖVCUDDUR"**

İnformasiya və kommunikasiya texnologiyaları üzrə ekspert Vahid Qasımov hesab edir ki, dövlət qurumlarının rəqəmsallaşma səviyyəsi ilə bağlı birmənalı fikir söyləmək çətindir: "Əgər Azərbaycanı Estoniya kimi informasiya texnologiyaları sahəsində inkişaf etmiş ölkələrlə müqayisə etsək, geridəyik. Amma müqayisəni inkişaf səviyyəsi aşağı olan ölkələrlə aparsaq, rəqəmsallaşma səviyyəsinə görə kifayət qədər yaxşı vəziyyətdə olduğumuzu deyə bilərik. Biz bu yola gec çıxsaq da, inkişaf üçün maddi resurslarımız mövcuddur. Bu da ən yeni texnologiyaları ölkədə tətbiq etmək imkanı yaradır. Prinsipcə, hazırda bu proses gedir. Ona görə də rəqəmsallaşma sahəsində inkişafımızı qənaətbəxş qiymətləndirmək olar".

**"MALİYYƏ, TİBB, TƏHSİL SAHƏSİ GERİDƏDİR"**

Bu istiqamətdə daha çox hansı qurumların geridə olduğuna gəlincə, ekspert ad çəkmək istəmir. Amma vurğulayır ki, əhali tərəfindən ən az müraciət edilən orqanlar geridədirlər: "Həmin qurumlara müraciət az olduğundan kölgədə qalıblar. Ola bilər ki, görünüş üçün yalandan hansısa fəaliyyətlər edirlər, amma bu, inkişaf sayıla bilməz".

Mütəxəssis bildirir ki, bir sıra ölkələr rəqəmsallaşmada xeyli önə çıxıb: "Biz də dünyaya inteqrasiyaya hazır olmalıyıq. Həmin yeniliklərin Azərbaycanda da tətbiqi mümkündür. Məsələn, bizdə maliyyə, tibb, təhsil sahəsində rəqəmsallaşmanın inkişafını çox da qənaətbəxş saymaq olmaz. Gələcəkdə bu istiqamətdə yeniliklər ola bilər. Amma əsas problemlərdən biri odur ki, əhali bu prosesə tam hazır deyil. Əhalinin rəqəmsallaşma səviyyəsi dövlət qurumlarının rəqəmsallaşma səviyyəsindən xeyli geri qalır. Bu məsələdə Elm və Təhsil Nazirliyinin üzərinə də məsuliyyət düşür. Yeni konsepsiyanın tələblərinə əsasən, bu qurum rəqəmsallaşmanın tədrisi ilə bağlı məsələlərə daha ciddi diqqət yetirməlidir. Hesab edirəm ki, bu istiqamətdə hətta məktəbəqədər təhsil pilləsindən tədrisə başlanılmalıdır. Çünki rəqəmsallaşma artıq vərdişdir və vərdişlər də uşaqlıq-dan qazanılmalıdır".


Elvin Abbasov

Foto: Sabir Məmmədov - Global Photostock

## "Görülən işlər kifayət etmir"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasovun sözlərinə görə, rəqəmsallaşma konseptual məsələdir: "Bunun üçün bütün tərəflər paralel şəkildə inkişaf etməlidir. Təbii ki, burada stimul verən tərəf dövlətdir. Dövlət tərəfindən qabaqcıl addımlar atılır, konsepsiyalar hazırlanır və sair. Bir neçə ildir ki, Azərbaycanda müxtəlif istiqamətlərdə rəqəmsal transformasiyalar baş verir. 10 ilə yaxındır ki, ölkəmizdə dövlət qurumları artıq elektron sənəd dövriyyəsindən istifadə edirlər. Maliyyə kargüzarlıqları və dövlət qurumları tərəfindən göstərilən bir sıra xidmətlər rəqəmsallaşıb. Amma yenə də görülən işlər kifayət etmir".

## "Gənclər rəqəmsal müstəvidə daha aktivdir"

Ekspert qeyd edir ki, rəqəmsal mədəniyyətin formalaşmasının əsas tərəflərindən biri də vətəndaşlardır: "Vətəndaşlarda mütləq yeni vərdişlər, alışqanlıqlar formalaşmalıdır. Rəqəmsal vətəndaş konsepsiyası bir çox ölkələrdə inkişaf etdirilir. Çünki texnologiya dövründə yaşayırıq. Rəqəmsallığın inkişafı üçün, ilk növbədə, rəqəmsal savadlılıq olmalıdır. Sonra rəqəmsal bacarıqlar əldə edilməlidir ki, "rəqəmsal vətəndaş" və "rəqəmsal cəmiyyət" anlayışına keçə bilək". Ekspertin fikrincə, bu istiqamətdə xüsusilə orta və yaşlı nəslin maarifləndirilməsinə ehtiyac var: "Gənclər rəqəmsal müstəvidə daha aktivdir. Amma nəzərə almalıyıq ki, ölkə tək gənclərdən ibarət deyil. Orta və yaşlı nəsil də rəqəmsal mədəniyyətin bir parçasına çevrilməlidir".

**"HEÇ BİR QURUMDA DURUM ARZUOLUNAN SƏVİYYƏDƏ DEYİL"**

Ekspert deyir ki, hazırda heç bir qurumda rəqəmsallaşma arzuolunan səviyyədə deyil: "Rəqəmsallaşma prosesi düzgün qurulmalıdır. Bəzi orqanlar var ki, onlar rəqəmsallaşma istiqamətində fərqli yollardan istifadə edirlər. Təəssüflər olsun ki, indiyə qədər olan sistemlə rəqəmsallaşma vahid konsepsiya üzərindən inkişaf etmədi. Hərə özü üçün bir sistem yaratdı. Məsələn, bir qurumun 7-8 ayrı-ayrı elektron xidməti var. Vətəndaş həmin xidmətlərin siyahısını yadda saxlamağa məcbur deyil. Əslində, bütün bu xidmətlər vahid bir məkanda toplanmalıdır. Tək vətəndaşların deyil, dövlət qurumlarının özlərinin də rəqəmsal mədəniyyətinin formalaşmasına ehtiyac var. Məsələn, bəzən olur ki, hansısa dövlət orqanı öz datasını heç bir quruma vermək istəmir. Bununla malik olduğu elektron üstünlükləri "nümayiş" etdirməyə çalışır. Əslində, belə hallar vətəndaşların elektron xidmətlərə əlçatanlığını azaldır. Azərbaycanda onlarla dövlət orqanı və onların da alt qurumları mövcuddur. Bunların hər biri özü üçün bir neçə sistem yaratsa, vətəndaş yüzlərcə elektron portalı yaddaşında saxlaya bilməyəcək. Bu halda ölkədə rəqəmsallaşma xaosa çevrilir. Baxırsan, elektron xidmət var, amma istifadə edilmir".


Vahid Qasımov

Foto: Rüfət Mikayılov - Global Photostock

E.Abbasov hesab edir ki, bu problemlərin həlli üçün xüsusi konsepsiyaya ehtiyac var idi: "Artıq həmin konsepsiya mövcuddur. Bu konsepsiya yol xəritəsi olmalıdır. Bütün xidmətlər my.gov.az-da öz əksini tapmalı və vətəndaşların həmin xidmətlərə əlçatanlığı təmin olunmalıdır".

İCTİMAİ NƏQLİYYATDA "TƏLƏBƏPLUS" KARTI SAHİBLƏRİNƏ GÜZƏŞTLƏR OLACAQMI?

# TƏLƏBƏLƏRİN BİTMƏYƏN İCTİMAİ NƏQLİYYAT PROBLEMİ

İnkişaf etmiş ölkələrdə vahid tələbə kartları daha çox ictimai nəqliyyat vasitələrindən istifadə zamanı tətbiq olunur. Bu kartlar vasitəsilə tələbələr ictimai nəqliyyatdan bəzi ölkələrdə tam ödənişsiz, bəzilərində isə böyük endirim faizləri ilə istifadə edirlər. Azərbaycanda isə kart tələbələrə nəqliyyatda hər hansı güzəşt təqdim etmir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bir müddət əvvəl "TələbəPlus" kartı müəyyən güzəşt və imtiyazlarla tələbələrin istifadəsinə verildi. Lakin tələbələrin bir qismi bu kartların onları qane etmədiyini bildirir, adi debet kartdan fərqlənmədiyini iddia edir. Onların əksəriyyəti mağaza və restoranlar əvəzinə, ictimai nəqliyyatda güzəştlərin tətbiq olunmasını istəyirlər.

Məlumat üçün bildirək ki, bu kartın tətbiq olunduğu bir çox ölkələrdə metro, avtobus və qatar biletlərində, velosiped və skuter icarəsində tələbələrə güzəştlər tətbiq edilir.

### "LAYİHƏYƏ 300-DƏK YERLİ VƏ XARİCİ PARTNYOR QOŞULUB"

"TələbəPlus" layihəsini həyata keçirən Təhsilin İnkişafı Fondunun ictimaiyyətlə əlaqələr üzrə aparıcı mütəxəssisi Nərgiz Qədirova "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, layihə ölkə üzrə bütün ali təhsil müəssisələrinin tələbələrinin eyni güzəşt və endirimlərdən yararlanmalarını təmin etmək, həmçinin onların sosial həyatlarına dəstək göstərmək məqsədi daşıyır: "Eyni anda bir neçə funksiyanı yerinə yetirən "TələbəPlus" kartı universitetə giriş-çıxış, təqaüd və debet bank kartı kimi istifadə ilə yanaşı, tələbələrə endirim və keşbek imkanları da təklif edir. Layihəyə 300-dək yerli və xarici partnyor qoşulub. Kart sahiblərinə tədris müəssisələri, restoran, kafe, geyim, kitab, dəftərxana ləvazimatları mağazaları, tibb müəssisələri, əyləncə və s. məkanlarda müəyyən güzəştlər təqdim edilir".

### MUZEYLƏRDƏ GÜZƏŞTLƏR NƏZƏRDƏ TUTULUB

Qurum rəsmisi bildirir ki, Mədəniyyət Nazirliyi ilə əldə olunan razılaşmaya əsasən, muzey, qalereya və sərgi salonlarında da tələbələr üçün xüsusi güzəştlər nəzərdə tutulur. Layihə çərçivəsində həmçinin Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası, Azərbaycan Nəşriyyatları Assosiasiyası və "Park Bulvar AVM" ilə Əməkdaşlıq Memorandumu imzalanıb.



Nərgiz Qədirova

## "MÜVAFİQ QURUMLARLA DANIŞIQLAR APARILIR"

İctimai nəqliyyatda endirim məsələsinə gəldikdə isə, N.Qədirova vurğulayır ki, bu, birbaşa olaraq Təhsilin İnkişafı Fondu, Elm və Təhsil Nazirliyinin səlahiyyətində olan məsələ deyil: "Müvafiq qurumlarla danışıqlar aparılır. Bu məsələ ilə bağlı yenilik olduğu təqdirdə rəsmi açıqlama veriləcək. Təhsilin İnkişafı Fondu "TələbəPlus"a daha çox tərəfdaşın qoşulması üçün öz təşəbbüsü ilə yerli və beynəlxalq şirkətlərlə gündəlik görüşlər həyata keçirir. Tələbələrin istəklərinə uyğun, xüsusilə onların aktiv istifadə etdiyi məkanlar (dəftərxana və kitab, geyim mağazaları, kinoteatr, kafe və restoranlar, təlim və sağlamlıq mərkəzləri) ilə əməkdaşlığa xüsusi önəm verilir. Bu şirkətlərlə yanaşı, Fonda müraciət edən digər özəl müəssisələrin də proqrama qoşulmasında heç bir maneə yoxdur. Fond hər seqmentdən olan iaşə müəssisələrinin müraciətlərini qəbul edir. Təhsilin İnkişafı Fondu hər bir dövlət və özəl şirkət ilə bu prosesdə əməkdaşlıq etməyə açıqdır".

### 190 000 TƏLƏBƏ KARTLA TƏMİN EDİLİB

Məlumat üçün bildirək ki, əməkdaşlıq müqaviləsi imzalanmış 23 universitetdə bakalavriat, magistratura, doktorantura pillələri üzrə 190 000 tələbə "TələbəPlus" kartı ilə təmin edilib. Qurumdan bildirilir ki, irəliləyən mərhələlərdə texniki peşə məktəbləri və orta ixtisas kolleclərinin, təxminən 70 000 nəfərin də bu layihədən yararlanması nəzərdə tutulur.




## GÜZƏŞTLƏR DÜNYADA VƏ BİZDƏ

Elm və təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri deyir ki, "TələbəPlus" kartının tətbiq olunduğu bütün ölkələrdə kartın əsas üstünlüyü onun məhz ictimai nəqliyyatda keçərlilik göstəricisidir: "Tələbə kartları dünyanın bir çox ölkəsində tələbələr üçün xüsusi imtiyazlar və güzəştlər təqdim edən vacib vasitədir. Bu kartlar əsasən tələbələrin ictimai nəqliyyatda, restoranlarda, dükanlarda və digər xidmət sahələrində endirimlərdən faydalanmalarına şərait yaradır. İnkişaf etmiş ölkələrdə vahid tələbə kartları daha çox ictimai nəqliyyat vasitələrindən istifadə zamanı tətbiq olunur. Bu kartlar vasitəsilə tələbələr ictimai nəqliyyatdan bəzi ölkələrdə tam ödənişsiz, bəzilərində isə böyük endirim faizləri ilə istifadə edirlər. Məsələn, Polşa, Macarıstan, Avstriya, İsveçrə, İsveç, Almaniya, Estoniya, ABŞ, Kanada, Yaponiya, İtaliya və s. kimi ölkələrdə oxuyan gənc soydaşlarımızın hamısı bu kartlardan razılığını qeyd edirlər. Ötən il Təhsilin İnkişafı Fondu bu məsələ ilə bağlı yeniliyi ictimaiyyətə çatdırdı. Biz də bunu xüsusi sevinclə qarşıladıq. Hətta bu barədə təhlil və açıqlamalarımızda yalnız pozitiv məqamlara diqqət çəkdik. Amma kartın üstünlükləri həmin kartı tanıyan şirkət, şəbəkə və xidmətlərin kəmiyyət-keyfiyyətindədir. Azərbaycanda ictimai nəqliyyatda keçərlilik olmadığı halda tələbələrimizin "TələbəPlus" kartını sevməsi çox da inandırıcı görünmür".

### KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN ARTIRILMASINA EHTİYAC VAR

E.Nuri vurğulayır ki, "TələbəPlus" hər bir halda müsbət layihədir: "Bir çox tələbələrin sosial şəbəkələrdə kartla bağlı fikirlərinin tam da müsbət olmadığını görürük. Amma ən azından bu kart tələbə bileti ilə endirim kartını, təqaüd kartını birləşdirən vahid sənəd kimi çox vacibdir. Keyfiyyət göstəricilərinin artırılmasına isə təbii ki, xüsusi ehtiyac var".

Həmsöhbətimiz vurğulayır ki, dünyada tələbə kartları ictimai nəqliyyatda güzəştlər, xidmət sahələrində xüsusi endirimlər, sosial dəstək üzrə qruplaşdırılır: "Bizdə tətbiq olunan tələbə kartlarında xidmət sahələrində endirim aktivdir. Buna görə tərəfdaşlara və təşkilatçılara təşəkkür edirik".



Elmin Nuri



## "Trendyol ev kolleksiyası" təqdim edilib

Dünyanın aparıcı elektron ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması "Trendyol" azərbaycanlı istifadəçiləri üçün məhsul çeşidini genişləndirərək özünün ev kolleksiyasını təqdim edib.

Azərbaycanda və digər ölkələrdə təqdim olunan "Trendyol ev kolleksiyası" yataq dəstləri, hamam aksessuarları, dəsmallar, masa örtüləri və dekorativ yastıqlar daxil olmaqla, geniş məhsul çeşidlərini təqdim edərək, "Trendyol"un sürətlə böyüyən məişət malları kateqoriyasına əlavə olunub.

Eksklüziv olaraq Türkiyədə istehsal edilən "Trendyol"un ev tekstil malları 100% pambıqdan və pambıq-polyester qarışığından hazırlanıb.

"Trendyol"un azərbaycanlı istifadəçiləri Novruz bayramı ərəfəsində 100-ə yaxın kateqoriya üzrə 33 min adda ev tekstil məhsulu və ev əşyası seçə bilərlər.

"Trendyol" platfromasında tekstil məhsullarından elektronika, uşaq qidalarından ev dekorasiyasına qədər 1500-dən artıq kateqoriyada məhsul təqdim olunur.

Hazırda "Trendyol" Azərbaycanda 2 milyondan çox müştəriyə xidmət edir.

Son iki ildə "Trendyol" tətbiqi Azərbaycanda ən çox yüklənən mobil tətbiq olub.



## "Nar" mobil rabitə üzrə təcrübəsini paylaşır

Mobil rabitə sektorunda sərfəli təklifləri ilə tanınan "Nar" telekommunikasiya mütəxəssislərini hazırlamaq istiqamətində layihələrini davam etdirir. Bu yöndə növbəti "Mobil rabitənin əsasları" təlimi Azərbaycan Texniki Universitetində (AzTU) keçirildi.

Universitetin tələbələri "Nar"ın texniki heyətinin hazırladığı və keçdiyi bu təlim zamanı mobil texnologiyanın təkamülü, mobil rabitə şəbəkəsinin quruluşu, əşyaların interneti (IoT), 5-ci nəsil texnologiya, mobil rabitənin strukturu, naqilsiz transmissiya şəbəkəsi, mobil rabitədə tezliklər kimi mövzular haqqında biliklərə yiyələndilər.

"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində paytaxtda və regionda universitetlərlə əməkdaşlıq edərək mobil rabitə sahəsinin yerli peşəkarlarını hazırlamaq və onların məzun olduqdan sonra uğurlu karyera qurmasını hədəfləyir. Bu təlimlər zamanı tələbələr "Nar"ın peşəkar texniki heyəti ilə ünsiyyətdə olaraq təkcə nəzəri biliklər deyil, həm də gələcək karyeralarının incəliklərini öyrənirlər.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# KİBERTƏHLÜKƏSİZLİK mövzusunda təlim keçirilib



İl ərzində planlaşdırılan təlimlər silsiləsinin ilk sessiyasında media nümayəndələrinə rəqəmsal təhlükəsizlik sahəsində əsas risklər, kibertəhlükəsizlik insidentlərinə qarşı müdafiə üsulları və rəqəmsal medianın informasiya təhlükəsizliyindəki rolu barədə ətraflı məlumat verilib.

Media nümayəndələri üçün kibertəhlükəsizlik mövzusunu təşviq etmək məqsədilə təlim keçirilib. Altmışa yaxın iştirakçının qatıldığı təlim "Bakcell" və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) birgə tərəfdaşlığı çərçivəsində baş tutub.

İl ərzində planlaşdırılan təlimlər silsiləsinin ilk sessiyasında media nümayəndələrinə rəqəmsal təhlükəsizlik sahəsində əsas risklər, kibertəhlükəsizlik insidentlərinə qarşı müdafiə üsulları və rəqəmsal medianın informasiya təhlükəsizliyindəki rolu barədə ətraflı məlumat verilib. Təlim iştirakçıları, eyni zamanda, süni intellektin kibertəhlükəsizlikdə tətbiqi, məlumatların məxfiliyi və kiberfırıldaqçılıq riskləri kimi vacib mövzular ətrafında müzakirələr aparıblar.




### TELEKOM SEKTORUNDA SÜNİ İNTELLEKT VƏ İNNOVASİYALAR

"Telekom sektorunda süni intellekt və innovasiyalar getdikcə daha böyük rol oynayır və biz media nümayəndələrinin bu trendləri yaxından izləməsinə kömək etməyi vacib hesab edirik. İnanırıq ki, təşkil etdiyimiz təlimlər iştirakçıların texnoloji yeniliklərə dair biliklərini artırmağa və rəqəmsal sahədəki dəyişiklikləri daha dolğun işıqlandırmalarına imkan yaradacaq", – deyə "Bakcell"in baş direktoru Klaus Müller bildirib.

### KİBERTƏHLÜKƏSİZLİK AKTUAL MƏSƏLƏYƏ ÇEVRİLİB

İRİA-nin İdarə Heyətinin sədri Fərid Osmanov isə təlimin əhəmiyyətini vurğulayaraq bildirib: "Media cəmiyyətin yeniliklərə açıq olmasında və innovativ düşüncənin formalaşmasında mühüm rol oynayır. Son dövrlərdə kibertəhlükəsizlik və rəqəmsal ekosistemin qorunması xüsusilə aktual məsələyə çevrilib. Bu təlimlər media nümayəndələrinə yalnız rəqəmsal bacarıqlar qazandırmır, eyni zamanda, onları kibertəhlükəsizlik risklərinə qarşı daha hazırlıqlı edir. Rəqəmsallaşan dünyada medianın təhlükəsiz informasiya mühitini qoruması strateji əhəmiyyət kəsb edir".

Qeyd edək ki, "Bakcell" 2012-ci ildən etibarən hər il media nümayəndələri üçün innovasiya və texnologiyalara dair təlimlər təşkil edir. Bu il isə ilk dəfə olaraq tədbirlərini daha geniş miqyasda keçirərək, İRİA ilə birgə reallaşdırıb.

Ölkədə innovasiya mövzusunda liderliyini qoruyan hər iki qurum il ərzində mütəmadi təlimlər təşkil edəcək. Süni İntellekt, rəqəmsallaşma, kibertəhlükəsizlik, innovasiya kimi mühüm mövzuları əhatə edən proqram iştirakçılara rəqəmsal transformasiya dövründə müasir media trendlərinə uyğunlaşmaq üçün praktik biliklər qazandıracaq.

# ŞƏRQLƏ QƏRBİN GÖRÜŞDÜYÜ ŞƏHƏR

Sarayevo səs-küylü, rəngarəng, müasirliyə can atan, ənənələri qoruyan, kasıb və mehriban şəhərdir. Yarım milyondan az əhalisi olan bu kiçik şəhərin zəngin və bənzərsiz tarixi var.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Sarayevonu "Balkanların Qüdsü" adlandırırlar. Milyaska çayı şəhəri iki hissəyə bölür: bu şəhər Qərblə Şərqin görüşdüyü yerdir. Şəhərin əsası türklər tərəfindən qoyulub, 17-ci əsrə qədər Osmanlının əyaləti olub. "Saray şəhər" - (Saraybosna) adlanması da buradan qaynaqlanır. Bosniyalılar 15-ci əsrdə islamı qəbul ediblər. Hazırda da əhalinin çox hissəsini müsəlmanlar təşkil edir. Müsəlman məscidlərinin azanı katolik və pravoslav kilsələrinin zənglərinə qarışır. Ən böyük məscidləri Osmanlı dövründə tikilib. 16-cı əsrə aid Qazi Xosrevbəy məscidi Sarayevoda Osmanlı dövrünün ən əhəmiyyətli abidəsi hesab olunur. 19-cu əsrdə Avstriya-Macarıstan imperiyası tərəfindən işğal ediləndən sonra şəhərdə bu gün də rast gəlinən Avropa memarlığı və üslubu görünməyə başlayıb. Məhz bu dövrdə Avropada ilk elektrik tramvay burada işə salınıb.

## OSMANLI MEMARLIĞININ GÖZƏL NÜMUNƏSİ

Sarayevo səs-küylü, rəngarəng, müasirliyə can atan, ənənəni qoruyan şəhərdir. Yarım milyondan az əhalisi olan bu kiçik şəhərin zəngin və bənzərsiz tarixi var.

Küçələrində qırmızı kirəmitli damları olan ənənəvi Bosniya evləri sıralanıb. Şəhər minarələri hər yerdən görünür. Alp dağlarının qışın soyuğundan bozaran yamacları arxa planda əzəmətlə dayanır. Şəhər üç xalqın tarixi ilə sıx bağlıdır: pravoslav serblər, katolik xorvatlar və islamı qəbul edən bosniyalılar. Mədəni və dini fərqliliklərə baxmayaraq, onların hamısı nəsillər boyu yan-yana yaşayaraq, öz unikal irsini şəhərin görkəminə daşıyıb.

## FÜSUNKAR BAŞÇARŞI

Sarayevo indi tamamilə yenidən qurulur. Paytaxta qədəm qoyan turistlər gəzintiyə Sarayevonun tarixi mərkəzindən - Başçarşıdan başlayırlar. Başçarşı 16-cı əsrdən bəri mövcud olan böyük bir şərq bazarıdır. Bura əsasən toxuculuq, zərgərlik, mis məmulatları satılan yerlər, şərq üslubunda xudmani kafelərlə əhatə olunub. Şəhər dükanları, bazarları və zərif məscidləri ilə İstanbulu xatırladır. Köhnə şəhərin küçələrində Avropanın və Yaxın Şərqin hissələri heyrətamiz bir şəkildə bir-birinə qarışıb.

Dünyanın heç bir yerində bir ərazidə bu qədər çox sayda kafedral, kilsə, məscid və hətta sinaqoq tapa bilməzsiniz. Sarayevonun tarixi mərkəzi YUNESKO-nun ilkin mədəni irs siyahısına daxil edilib.

## MÜHARİBƏLƏRİN ACI HEKAYƏSİ

Şəhəri gəzdikcə binaların divarlarında hərbi əməliyyatların izlərini, yolların təmirsizliyini müşahidə edirsən. Novo Sarayevonun qərb ətrafı, güllə və mərmilərlə dolu tərk edilmiş evləri ilə Balkan münaqişəsinin kədərli bir xatırlatmasıdır.

Sarayevo həm də körpülər şəhəridir. Milyaska çayı üzərindəki körpülərin hər birinin öz tarixi var. Birinci Dünya müharibəsinin başlamasına səbəb olan, Avstriya-Macarıstan vəliəhdi Frans Ferdinandın və arvadının öldürüldüyü "Latın körpüsü", 1993-cü ildə vətəndaş müharibəsi zamanı şəhərdən qaçmağa cəhd edən bosniyalı gənc cütlüyün öldürüldüyü "Romeo və Cülyetta" körpüsü, dinc nümayiş zamanı güllələnən müsəlman Saida və xristian Olqa körpüsü... Şəhərdə Bosniya və Herseqovinanın keşməkeşli, müharibələrlə dolu tarixini əks etdirən muzeylər də çoxdur.

Bosniyalılar üçün sevimli tarixlərdən biri də 1984-cü ildə Sarayevoda (o zaman Yuqoslaviya) Qış Olimpiya Oyunlarının keçirildiyi tarixdir. Bu tarixi əbədiləşdirən simvol da şəhəri bəzəyir.

## ƏN ÇİRKLİ ŞƏHƏRLƏR SİYAHISINDA

Sarayevoda qışda istilik üçün kömürdən və odundan istifadə edirlər. Yol boyunca evlərin həyətlərində səliqə ilə yığılan odunları və damlardan qalxan tüstüləri görmək olur. Alp dağlarının ətəyində qırılmış ağaclar da gözdən yayınmır. Hətta 2023-cü ildə Sarayevo kömürlə işləyən elektrik stansiyalarının istifadəsi ilə bağlı dünyanın ən çirkli şəhərləri siyahısına daxil edilib. Paytaxtın vaxtaşırı dumanla örtülməsi sakinləri narahat edir. Mütəxəssislər Balkanlarda havanın çirklənməsinə qismən kömürlə işləyən elektrik stansiyaları və köhnə avtomobillərin səbəb olduğunu bildirirlər. Sarayevo hakimiyyəti 2035-ci ilə qədər şəhəri karbondan təmizləyəcəyinə söz verib. Amma hələ də insanlar evlərini qızdırmaq üçün daha ucuz bərk yanacaqdan istifadə etməyə davam edirlər və köhnə avtomobillərini dəyişə bilmirlər.

Serblərlə müharibədən sonra ölkə dirçəlməyə çalışır. "Burada iş yerləri tapmaq çətindir", - deyə Bosniyada doğulan türklərdən biri söhbətimizdə bildirdi: "Əmək haqqı 500 avrodur. Bosniyalılar tənbəldirlər. Saatlarla kafelərdə oturmağı xoşlayırlar. Başqa ölkələrə miqrant kimi gedəndə isə işləyirlər".

## HƏM MƏSAFƏ YAXINDIR, HƏM DƏ VİZA YOXDUR

Bosniya və Herseqovina - vizasız səyahət üçün maraqlı ölkədir. Paytaxt Sarayevo gözəl təbiətli, tarixi, eyni zamanda ucuzdur. Bu baxımdan, Bosniya və Herseqovinaya turistlər çox səfər edirlər. Xüsusən yay aylarında, havalar qızanda turizm dövrü açılır. Sarayevo türklərin sevimli yeridir. "Həm məsafə baxımından, həm də viza tələbi olmadığından bu ölkəyə gəlirik", - deyə təyyarədə yanaşı oturduğum türk tələbə bildirdi. Ölkədə hazırda da xeyli türk yaşayır. Hər addımda şirin türk ləhcəsini eşitməyin də ayrıca bir zövqü var. Azərbaycanlı turistlər də səyahət üçün Balkanların bu tarixi şəhərinə səyahətə üstünlük verirlər. Sarayevo 1972-ci ildən Bakı ilə qardaşlaşmış şəhərdir.

Sarayevonun özünəxas dadlı mətbəxi də var. Demək olar ki, hər küncdə siz Balkanlarda ən məşhur küçə yeməklərini, müxtəlif içliklərlə doldurulmuş isti piroqları tapa bilərsiniz.

İctimai nəqliyyat Sarayevoda mükəmməl qurulub. Avtobus, trolleybus və ya qədim tramvayla rahat hərəkət etmək mümkündür.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
1 MART ŞƏNBƏ 2025
kaspi.az

# 21-ci əsrin "Firon"u

Məhəmməd Salahın hekayəsi bir futbolçunun necə qlobal simvola çevrilə biləcəyinin ən gözəl nümunələrindən biridir. O, sadəcə bir oyunçu deyil - bir millətin fəxri, bir klubun simvolu və dünya futbolunun əfsanəsidir.



2012-ci il. Misir televiziyalarından birinin canlı yayımında gənc futbolçu klub rəhbərliyinə müraciətlə az qala yalvararaq, onu Avropaya, İsveçrə "Bazel"inə buraxmalarını xahiş edir. Cavan bir oyunçu üçün bu, olduqca böyük riskdir. Bu elə bir dövrdür ki, Port-Səid stadionundakı faciədən sonra ölkədə futbol çempionatı dayandırılıb. Misirin aparıcı klubları yaxşı maaş ödəyir və oyunçuları asanlıqla buraxmaq istəmirlər. Cəmi 19 yaşı olan bu gənc isə anlayırdı ki, alın yazısını məhz özü yazmalıdır. Bu gün onun həyat yolunu Misirdə dərsliklərə salırlar. Futbol eşqi ilə yanan həmin cavan oğlan müasir futbolun ən parlaq simalarından olan Məhəmməd Salah idi.

### YOXSULLUQ VƏ ÇƏTİNLİKLƏR İÇİNDƏ KEÇƏN UŞAQLIQ

Kiçik Naqriq kəndində dünyaya gələn gələcəyin ulduzunun uşaqlıq illəri yoxsulluq və çətinliklər içində keçib. Yeganə arzusu top qovmaq olan və saatlarla çətin şəraitdə məşq edən Salah futbolun onun üçün sadəcə bir oyun olmadığını, həyat tərzi olduğunu erkən yaşlarından dərk etmişdi. On yaşında skautların diqqətini çəkən balaca Məhəmməd "Əl-Mökavlun"da özünü göstərdikdən sonra böyük keşməkeşlə 2.5 milyon avro qarşılığında "Bazel"ə keçməyi bacardı. İsveçrədəki iki mövsüm onun üçün yeni qapılar açdı və "Çelsi"nin diqqətini çəkdi.

Londonda ulduzların arasında gözlədiyi qədər oyun şansı əldə edə bilməyən gənc misirli geri çəkilmədi. 2015-ci ildə "Fiorentina"ya icarəyə göndərildi və burada öz bacarıqlarını nümayiş etdirməyə başladı. Daha sonra "Roma"ya keçid edən Salah İtaliya çempionatında möhtəşəm performans sərgiləyərək özünü bütün Avropaya tanıtdı. 2016-2017 mövsümündə "Roma"nın ən məhsuldar oyunçularından biri olmaqla yenidən "Dumanlı Albion" yolu açılan Məhəmməd tezliklə "Dövrünün Fironu" hesab olunmağa başlayacaqdı.

### İKİQAT REİNKARNASİYA

"Liverpul"la Salahın yolunun kəsişməsi hər ikisi üçün yeni yolun başlanğıcı idi: bir tərəfdə özünü hələ də tam olaraq sübut edə bilməyən saf istedad, digər tərəfdə 30 ilə yaxın çempionluq üzü görməyən nəhəng klub. Bu keçid Mersisayd təmsilçisinə cəmi 42 milyon avroya başa gəlmişdi. Həmin transferdən cəmi bir ay sonra Neymarın "Barselona"dan PSJ-yə 222 milyon avroya transfer olduğunu xatırlayanda, bu məbləğ, həqiqətən, çox az idi. Salah "Liverpul"da ilk ilində 32 qolla Premyer Liqanın bombardiri oldu. O, təkcə fərdi performansı ilə deyil, həm də komandanın oyun üslubuna verdiyi dinamika ilə "qırmızılar"ın hücum xəttində əsas fiqura çevrildi. Növbəti mövsüm "Liverpul" UEFA Çempionlar Liqasının qalibi oldu. Finalda "Tottenhem"lə matçın əvvəlində vurduğu qol komandasının titulu əldə etməsində böyük rol oynadı. Bir il sonra isə "Liverpul" uzunmüddətli arzusuna məhz Salahın əla performansı ilə çatacaqdı. Ölkə çempionatı Premyer Liqa adlanandan heç vaxt qalib ola bilməyən komanda 2019-cu ildə hədəfini reallaşdıra bildi. Salah vurduğu 19 qolla çempionluğun memarlarından idi. Hər iki tərəf üçün reinkarnasiya adlandıra biləcəyimiz bu perioda Avropa Super Kuboku, klublararası dünya çempionluğu, İngiltərə Liqa və Federasiya kubokları və bir neçə digər titulu sığış-dırmaq mümkün oldu.

**25 qolla Premyer Liqanın bombardiridir**

## Onun böyük ürəyi

Salah sadəcə bir futbolçu deyil. O, meydanda və meydandan kənarda bir əfsanəyə çevrilən, sadə bir kənd uşağından dünya futbolunun zirvəsinə yüksələn modern zamanın qəhrəmanıdır. Salahın uğur yolu əzmkarlıq, sədaqət və inamın insanı haralara daşıya biləcəyinin canlı sübutudur. Onun hekayəsi təkcə futbolsevərlər üçün yox, hər kəs üçün ilhamvericidir. Əlbəttə, təkcə meydandakı performansı bir nəfəri bu qədər sevdirə bilməzdi.



Salahın xeyirxahlığı haqqında əfsanələr çoxdur: Basyun şəhərindəki xəstəxanaya 560 min funt sterlinq, Qahirədəki Milli Xərçəng İnstitutuna 2.5 milyon funt sterlinqlik yardımlar, pandemiya zamanı minlərlə ton ərzaq, təcili yardım mərkəzi, oksigen silindirləri, su təmizləmə zavodu, qızlar məktəbi, Qəzza bölgəsinə humanitar yardım, Misir Qırmızı Aypara Cəmiyyətinə ianələr və sair...

## Pazlın son parçası

Salah futbolçu kimi əldə edə biləcəyi bütün böyük mükafatları qazanıb. Burada yalnız dünya çempionluğunu istisna edə bilərik ki, onu da anlamaq çətin deyil. Futbol hər şeydən əvvəl komanda oyunudur və Misir yığmasının bu potensialı sadəcə yoxdur. Lakin fərdi olaraq Salah "Qızıl top"u əldə edə bilər - hər nə qədər son illərdə bu mükafatın təqdim edilməsi zamanı kollektiv nəticələrə önəm verilsə də. İl yeni başlayıb, lakin hətta indidən Salahı "Qızıl top"a namizəd göstərənlər az deyil. Ən yaxın izləyicisi ilə ciddi fərq yaradan



"Liverpul" Premyer Liqada çempionluğa çox yaxındır. Komandanın göstərdiyi oyun Çempionlar Liqasında da titul əldə etməyi olduqca real edir. Uzaq 2017-ci ildəki performansından sonra "bir mövsümlük oyunçu" damğası vurulan Məhəmməd Salah isə 27 oyunda vurduğu 25 qolla Premyer Liqanın bombardiridir.

Salahın hekayəsi bir futbolçunun necə qlobal simvola çevrilə biləcəyinin ən gözəl nümunələrindən biridir. O, sadəcə bir oyunçu deyil - bir millətin fəxri, bir klubun simvolu və dünya futbolunun əfsanəsidir.